www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19-20 sentyabr 2015-ci il Şənbə № 208 (6236) Qiyməti 40 qəpik

Xəbər

## İlin sonuna qədər 20-yə yaxın bank bağlana bilər

yazısı səh.10-da

Gündəm

### Azərbaycana sığınan erməni müxalifətçidən şok açıqlamalar



**Vaan Martirosyan:** "Ermənistan ordusu korrupsiya içində üzür", "Oradakı doğmalarımızdan narahatıq"; erməni ailəsinin gəlişinə siyasi və hüquqşünas rəyləri...

yazısı səh.5-də

### Hakimiyyət oliqarxiyanın siyasətə təsirini azaltmağa çalışır

yazısı səh.11-də

### Müsavatın Avropadakı müttəfiqi Bakıya buraxılmadı

yazısı səh.3-də

### "AĞ blok"un namizədlərinə qarşı təzyiqlər başlayıb

yazısı səh.6-da

### Əflatun Amaşov Cəlal Əliyevin dairəsindən deputat olmaq istəyir

yazısı səh.3-də

### İslam Oyunları ilə bağlı Təşkilat Komitəsi yaradıldı

yazısı səh.2-də

### İsa Qəmbər 2018-ci ilə ümidlidir

yazısı səh.6-da

### Elmar Məmmədyarov ABŞ müdafiə nazirinin köməkçisi ilə sərt danışdı

yazısı səh.8-də

### Moskvada Rusiya və Türkiyə prezidentlərinin görüşü keçiriləcək

yazısı səh.9-da

*Mirvari Qəhrəmanlı:*

### "Əfvin gecikməsinin səbəblərindən biri də beynəlxalq təşkilatlardan olan təzyiqlərdir"

yazısı səh.8-də

### Bankların növbəti fırıldağı - faiz dərəcələri...

yazısı səh.11-də

### Dollar bahalaşmayacaq - Federal Rezerv Bankı uçot dərəcəsini dəyişdirmədi...

yazısı səh.10-da

## Ziya Məmmədovun "dəmir gəliri" də əlindən alındı

# NƏQLİYYAT NAZİRİNİ HİSSƏ-HİSSƏ BİTİRİRLƏR...

"Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarıldı; bu həm də yaxın illərdə dəmir yolundan gələcək ciddi maliyyə vəsaitlərinin Cavid Qurbanova etibar edilməsi deməkdir; Məmmədovlar klanı məğlubiyyətləri ilə tam barışıblar və hakimiyyətin bütün strukturlarından çəkiləcəklər...

yazısı səh.5-də



# Türkiyədə gizli inqilab planı - şok iddialar

Ankaranı çalxalayan bir neçə milyardlıq devirim projesi; qardaş ölkə xüsusi xidmət orqanları ölkəyə gizli şəkildə keçirilmiş 2,5 milyard dolları axtarır; PKK-nın terrora başlaması ilə bu vəsaitin ölkəyə girməsi tarixi üst-üstə düşür...

yazısı səh.12-də



### Səlahiyyətləri artırılan Cavid Qurbanov "Yeni Müsavat"a danışdı

yazısı səh.3-də




### Ən yaxın adamı da Əli Kərimliyə qarşı çıxdı

yazısı səh.6-da



*Maksim Musayev:*

### "Belələrinin yeri Milli Məclis yox, filarmoniyadır"

yazısı səh.11-də

# Səfər Əbiyev də həbs edilə bilər

**Sentyabrın 18-də Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmə və vəzifə səlahiyyətlərindən sui-istifadə etmədə təqsirləndirilən müdafiə nazirinin keçmiş müavini polkovnik Mehman Səlimovun cinayət işi üzrə məhkəmə davam etdirilib.**



Prosesdə təqsirləndirilən şəxs ifadəsində özünü təqsirli bilməyib və bütün qanunsuz işləri keçmiş müdafiə naziri Səfər Əbiyevin göstərişi ilə icra etdiyini deyib.

Sabiq polkovnikin bu ifadəsi uzun zamandır müzakirəsi gedən Səfər Əbiyevin həbsi ehtimalını bir qədər də yaxınlaşdırdı.

Hərbi jurnalist, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov Modern.az saytına deyib ki, kimliyindən asılı olmayaraq hər kəs əgər qanunsuzluq edibsə, cavab verməlidir:

"Hesab edirəm ki, səslənən fikirlərə sonda məhkəmə hüquqi qiymət verəcək. İstənilən halda, qanun qarşısında hamı cavabdehlik daşıyır. Kimsə qanun pozuntusuna yol veribsə, o mütləq mənada qanun qarşısında məsuliyyət daşıyır".

Ekspertin sözlərinə görə, Mehman Səlimov verilən tapşırıqda qanun pozuntusu olduğunu bilirdisə, onu icra etməkdən imtina edə bilərdi:

"Çünki bu, qanunda öz əksini tapıb. Bildiyiniz kimi, hərbinin özünəməxsus özəllikləri var. Hərbidə belədir, insan tabeçilik münasibətlərində olur və tabesində olduğu şəxsin əmr və göstərişlərini icra edir. Bununla bağlı qanunda göstəriş var ki, əgər vəzifəli şəxs yerinə yetirdiyi əmrin qanuna zidd olduğunu düşünürsə, onu yerinə yetirməkdən imtina edə bilər. İstənilən halda məhkəmənin son qərarını gözləmək lazımdır".

Üzeyir Cəfərov bildirir ki, araşdırma nəticəsində Səfər Əbiyevin günahı sübuta yetirilərsə, o, həbs edilən ilk nazir olmayacaq:

**"Əgər Mehman Səlimovun səsləndirdiyi fikirlər təsdiqini taparsa, Səfər Əbiyev də məsuliyyətdən yaxa qurtara bilməz. Azərbaycan reallığında hətta hakim partiyanın üzvü olan nazirlərin törətdikləri əməllərə görə məsuliyyətə cəlb olunduğunun şahidi olmuşuq".**

## İslam Oyunları ilə bağlı Təşkilat Komitəsi yaradıldı



**Prezident İslam Oyunlarının Təşkilat Komitəsinin yaradılması ilə bağlı sərəncam imzalayıb. Sərəncamda deyilir: "İslam Həmrəyliyi İdman Federasiyasının 8-ci Baş Assambleyasında IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qəbul edilmiş 2013-cü il 24 iyul tarixli qərar Azərbaycanda məmnunluqla qarşılanmışdır. Bu mühüm hadisə bir daha nümayiş etdirir ki, Azərbaycan Respublikası dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutmaqdadır.**

İslam aləmində özünəməxsus mövqeyə malik Azərbaycanın mövcud potensialı və gerçəkləşdirdiyi genişmiqyaslı müasir infrastruktur layihələri idman oyunlarının sağlam rəqabət və dostluq şəraitində təşkili üçün əlverişli zəmin yaradır.

Uğurla başa çatmış ilk Avropa Oyunlarının ardınca eyni məkanda növbəti İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışların keçirilməsi Azərbaycan Respublikasının tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi olmaqla yanaşı, onun idman şöhrətini artıracaq, beynəlxalq nüfuzunu daha da möhkəmləndirəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

- 2017-ci ilin may ayında Bakı şəhərində IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üzrə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın"...

Sərəncama görə Təşkilat Komitəsinin sədri Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva təyin olunub.

## Azərbaycan ATƏT-in sessiyasında iştirakdan imtina etdi




**Azərbaycan nümayəndə heyəti ATƏT Parlament Assambleyasının (PA) payız sessiyasında iştirakdan imtina edib. Milli Məclisdən verilən məlumata görə, vitse-spiker Bahar Muradovanın başçılıq etdiyi nümayəndə heyəti qurumun Ulan-Batorda (Monqolustan) keçirilən payız sessiyasına qatılmayıb.**

B.Muradova APA-ya açıqlamasında bununla bağlı verilən qərarın səbəbini açıqlayıb: "Əvvəla, həm mən, həm də Azay Quliyev qarşıdan gələn parlament seçkilərində namizədliklə bağlı məsələlərlə məşğuluq. Əvvəldən də yalnız Azay Quliyevin orada iştirakı nəzərdə tutulmuşdu. Amma ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Azərbaycanda seçkiləri müşahidə etməmək barədə qərarından sonra ümumiyyətlə belə mənasız müzakirələrdə iştiraka lüzum görmədik.

Düşündük ki, indiki halda elə mənasız müzakirələrə baş qoşmaqdansa, Azərbaycandakı normal seçki mühitindən istifadə edib, bu demokratik prosesdə iştirak etmək daha yaxşı olar. Lakin bu, hazırkı dövr üçün verilən qərardır, növbəti toplantılara aidiyyəti yoxdur".

Qeyd edək ki, ATƏT PA-nın sentyabrın 15-də başlayan sessiyası bu gün başa çatır.

Xatırladaq ki, sentyabrın 11-də ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosu noyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərini müşahidə etməyəcəyi ilə bağlı qərarını açıqlayıb.

### Başsağlığı

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı mərhum prezident Əbülfəz Elçibəyin mühafizəçisi olmuş İlqar bəyin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Milli Stareji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər mərhum prezident Əbülfəz Elçibəyin mühafizəçisi olmuş İlqar bəyin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05



## Polisin saxladığı «07»dən 20 kilo narkotik çıxdı

**Respublikanın daxili işlər orqanları tərəfindən mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində daha bir uğurlu əməliyyat tədbiri həyata keçirilib və nəticədə qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitə çıxarılıb.**

DİN-dən Avtosfer.az-a verilən məlumata görə, daxil olmuş əməliyyat məlumatı əsasında Biləsuvar Rayon Polis Şöbəsi əməkdaşlarının sentyabrın 16-da həyata keçirdikləri tədbirlərlə Cəlilabad rayon sakini Şahin Cəfərovun idarə etdiyi "VAZ-2107" markalı avtomobil saxlanılıb. Baxış zamanı bu nəqliyyat vasitəsindən ağır tərkibli narkotik vasitələr olan 19,5 kiloqram tiryək və 830 qram heroin aşkar edilərək götürülüb.

Polis əməkdaşları Şahin Cəfərovu və avtomobildə olan Yardımlı rayon sakinləri - Ərəstun İbayevi, Elvin Ağayevi və Baloğlan Əmrahovu şübhəli şəxs qismində tutublar.

İlkin araşdırmalarla sürücü və onun sərnişinlərinin qabaqcadan cinayət əlaqəsinə girdikləri və İran İslam Respublikasından ölkəmizə qaçaqmal yolu ilə keçirilən külli miqdarda narkotik vasitəni qazanc məqsədi ilə satmaq istədikləri müəyyən edilib.

Faktla bağlı Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.




## İsveçrə oğurluq pulları dondurmaq üçün qanunu sərtləşdirir

**İsveçrə diktatorların və qanunsuz yollarla varlanan digərlərinin bu ölkə banklarında saxlanılan pullarına həbs qoymaq üçün qanunları sərtləşdirir. Virtualaz.org saytı xəbər verir ki, "Siyasi əhəmiyyətli şəxslər tərəfindən qanunsuz yollarla əldə edilmiş aktivlərin və sərvətlərin bloklanması "barədə qanun yeni redaktədə İsveçrə Konfederasiyasının parlamentində müzakirəyə çıxarılıb.**

Yeni qanunvericilik aktı ən tələbkar dünya standartları əsasında hazırlanıb və İsveçrənin bütün dünya boyu diktatorlar və tiranlar tərəfindən oğurlanmış pulların saxlanılması üçün cənnətməkan statusundan azad olmasına imkan verəcək.

Swissinfo.ch bildirir ki, qanunun yeni variantı Dünya Bankı tərəfindən də yüksək qiymət alıb. İsveçrə parlamenti bu ölkə banklarının oğurluq pullar və qanunsuz yollarla əldə edilmiş gəlirlər üçün ən təhlükəsiz sığınacaq olmasına dair tənqidlərin artmasından sonra qanunu müzakirəyə çıxarıb.

Məlum olduğu kimi, Hüsnü Mübarəkdən tutmuş Qəzzafiyə, Afrika diktatorlarına və gəlirlərini vergidən gizlətmək istəyən milyarderlərə qədər hər kəsin pulları İsveçrə banklarında saxlanılırdı.

Lakin yeni qanunda şübhəli aktivlərin preventiv bloklanması üçün daha geniş imkanlar açılır, həmin aktivlərin İsveçrə banklarından çıxarılaraq başqa yuridiksiyaların sərəncamına keçirilməsinin mümkünlüyü istisna edilir.

Daha bir mühüm məqam budur ki, yeni qanuna əsasən bundan sonra nə İsveçrə, nə Misir, Tunis, Liviya və ya Ukrayna kimi devrilmiş diktatorların ölkələri İsveçrə banklarında aşkarlanmış aktivlərin qanunsuz yollarla əldə edildiyini sübut etməyə ehtiyacı olmayacaq. Qanuna əsasən həmin aktivlərin sahibləri İsveçrə banklarındakı pullarının və ya daşınmaz əmlaklarının qanuni olduğuna dair tutarlı sübutlar təqdim etməlidir.

Həmçinin yeni qanuna görə, İsveçrə hökuməti parlamentin razılığını almaqla keçmiş liderləri tərəfindən sərvətləri talan edilmiş ölkələrlə əməkdaşlıq edərək onlara oğurluq pulların saxlanıldığı bank hesabları barədə məlumatları öz təşəbbüsü ilə təqdim edəcək.

Qanun onu da nəzərdə tutur ki, İsveçrə banklarında dondurulmuş pullar ancaq həmin pulların mənsub olduğu ölkədə və müstəsna olaraq əhalinin rifahı, hüquqi dövlət quruculuğu üçün xərclənə bilər. Hesabların debloklanması ancaq bu halda mümkün olacaq.

## Ödənişsiz təbliğatın aparılacağı KİV orqanları açıqlandı

**Milli Məclisə seçkilərdə kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına aşağıda göstərilən kütləvi informasiya vasitələrində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq.**

MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən APA-ya verilən məlumata görə, pulsuz efir vaxtı və seçki materiallarının pulsuz dərc olunması aşağıdakı KİV orqanlarında həyata keçiriləcək:

- İctimai Televiziya və Radio Yayımları Şirkəti;
- "Azərbaycan" qəzeti;
- "Xalq qəzeti";
- "Bakinski raboçi" qəzeti.

Yuxarıda göstərilən qurumlar, o cümlədən digər teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları seçkiqabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək dərc etməlidirlər.

## "Meydan" TV-nin daha bir işçisinin evində axtarış aparıldı

**Sentyabrın 18-də jurnalist Cavid Abdullayevin kirayədə yaşadığı evdə axtarış aparılıb. "Turan"ın verdiyi xəbərə görə, "Meydan" TV ilə əməkdaşlıq edən C.Abdullayevin evində aparılmış axtarış digər jurnalist Şirin Abbasovun işi ilə bağlıdır. Ş.Abbasova dünən 30 sutka həbs cəzası verilib. Hüquq-mühafizə orqanlarının əməkdaşları jurnalist C.Abdullayevin kompüterini, üç kamerasını və noutbukunu götürüblər.**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

Yeni MÜSAVAT
N 208 (6236) 19 sentyabr 2015

**YAP-ın qurucularından olan sabiq deputat Maksim Musayev hakim partiyanın deputatlığa namizədlər siyahısı, parlament seçkiləri və digər məsələlər barədə "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

# "YAP-ın deputatlığa namizədlərinin çoxunu tanımıram"

## **Maksim Musayev:** "Deputatlar var ki, Konstitusiyanı oxumayıb, maddələrindən xəbəri yoxdur, belələri deputatlıqdan sui-istifadə edirlər; biznes quran adamlar parlamentdə oturmamalıdırlar"

***- Maksim müəllim, üzvü olduğunuz YAP-ın deputatlığa namizədlər siyahısı ilə tanışsınızmı? Siyahıda adı olan namizədləri tanıyırsınızmı?***

- Birinci növbədə onu deməliyəm ki, YAP parlamentdə həmin şəxslərin deputat kimi əyləşməsinə qərar çıxarıbsa, mən o siyahıdakıları tanıyıb-tanımamağımdan asılı olmayaraq onun əleyhinə çıxa bilmərəm. Mən bir partiya üzvü kimi siyahını müdafiə edə bilərəm. YAP-ın deputatlığa namizədlər siyahısındakı adamların çoxunu tanımıram, adlarına da ilk dəfə həmin siyahıda rast gəlmişəm. Siyahıdakıların bəzilərini isə tanıyıram. Bəziləri deputatlığa çox layiqdirlər. Onlarla mən deputat həmkarı da olmuşam. Bəzilərinin çıxışlarını dinləmişəm, bəzilərinin qanunlara münasibətindən xəbərim var.

***- YAP-ın siyahısındakılardan nə qədəri deputat ola bilər?***

- İndiki dövrdə hər kəs deputat ola bilər. Ağır iş görən deputatlar birinci çağırış Milli Məclisin deputatları idilər. Mən şəxsən məhz həmin dövrdə deputat idim. O vaxt bizi cəmi 100 dollar maaş alırdıq. Sutkanın da 12-14 saatını işləyirdik. Yalnız qanun yaradıcılığı ilə məşğul olurduq. Evə də avtobusla gedib gəlirdik. Parlamentdə texniki baxımdan iş şəraiti də çox ağır idi. İclas zalı rəhmətlik Elmira Qafarovanın sədrliyi zamanı təmir olunmuşdu. İclas zalına efirdən baxanda yaxşı görünürdü. Əslində isə yaxşı vəziyyətdə deyildi, oturacaqların çoxu sınıq-sökük idi, ağır çəkili deputatlar əyləşəndə sınırdı, yıxılırdı. Bir dəfə rəhmətlik Fərəməz Maqsudov gəlib oturdu yanımda, oturan kimi stul sındı. İndi Oqtay Əsədov parlamentin binasında elə bir komfort yaradıb ki, heç kim deputatlıqdan asanlıqla əl çəkmək istəmir. Hər deputat üçün ideal komfortlu şərait yaradılıb. Bahalı kresloları, hər birinin kompüteri, köməkçisi var, onlara hər cür şərait yaradılıb. Lakin mən maraqlanmışam onların çoxu o kompüterlərdən istifadə eləməyi bacarmır. Onların bəzilərinin qarşısındakı invertarlar da demək olar ki, işlənməməkdən paslanıb. İndiki deputatlara hələ bir köməkçi də verib dövlət. Bizim deputat olduğumuz zamanlarda bizim ağlımızdan belə keçməzdi köməkçimiz olması. İndi köməkçilər nə ilə məşğuldur bunu özləri bilərlər, mənə bəlli deyil. Onların fəaliyyəti təftiş edilsə görünər ki, onların bəziləri ola bilsin büdcədən boşuna pul alırlar. Bu barədə düşünməyin vaxtıdır. Yadımdadır ki, bizim zamanımızda qanunları özümüz yazırdıq. Milli Məclisin kompüterində yazmaq üçün növbəyə dururduq. Növbədə duranda da kompüterdə əyləşənə çay xidməti də göstərməli olurduq. İndi isə vəziyyət tamam başqa cürdür, əla şərait yaradılıb. Qalır bu şəraitdən səmərəli istifadə etmək. Əminəm ki, yeni seçiləcək deputatlar səmərəli işləyəcəklər və büdcəyə yük olmasın deyə bir çox komfortlardan özləri imtina edəcəklər. Biz deputat olanda dövlət büdcəmiz 460-500 milyon dollar idi, bu il isə 20 milyarddır. Deməli, istəsələr, deputatlar gələn il büdcədə azalmanı nəzərə alaraq bəzi şeylərdən imtina edərlər.

Mənim bir neçə il öncə bir kitabım işıq üzü gördü. Kitab üzərində 15 ilə yaxın idi işləyirdim. Adı "Parlamentlər və kəndlilər yüz ildə" idi. O kitabda mən arxiv materiallarına əsasən Azərbaycan parlamentarizmi tarixinin bütün hər şeyini öyrəndim. Bu qənaətə gəldim ki, deputat nə qədər çox kasıb yaşasa, sadə həyat tərzi keçirsə, nə qədər çox xalqın içində olsa, nə qədər çox problemlə üz-üzə gəlsə, o qədər dövlətinə, xalqına yaxşı xidmət göstərər. Əgər 1 noyabrda formalaşacaq parlamentin deputatları öz bizneslərini qorumaq üçün parlamentə oturmağa can atırlarsa, bununla mən heç cür razılaşa bilmərəm. Bir şeyə də gərək biz diqqət yetirək. Təqaüd yaşı çatmış bir çox deputatlar var ey, hansı ki, onlardan kreslolar da yorulub, onlar yerlərini gənclərə versələr əla olar. Düzdür parlamentdə elə deputatlar var ki, onlar çox gözəl biliyə malikdirlər, yaxşı təcrübələri var və parlament üçün lazımlıdırlar. Mən istərdim elə təcrübəli, savadlı, vətənpərvər, şəxsi mənfəətini güdməyən deputatlar çox olsun, belələri yaşından asılı olmayaraq parlamentdə olsunlar. Məsələn, belə deputatlardan biri Vahid Əhmədovun adını çəkə bilərəm. Digərləri də var ki, yaşları bir az çox olsa da parlamentdə olmaları xalqın, dövlətin xeyrinədir. Qadınların Milli Məclisdə çox olması daha yaxşı olardı. Mən 15 il deputat olmuşam. Bunun beş ili sovet dövrünə, beş ili keçid dövrünə, beş ili isə müstəqillik dövrünə düşüb. Təcrübəyə əsaslanıb deyirəm ki, qadın deputatların işgüzarlığı, təşkilatçılığı, təəssübkeşliyi, qanunpərəstliyi bir çox kişi deputatdan üstün olur. Daha yeri gəlib onu da deməliyəm, mənə çox gülməli gələn odur ki, deputat musiqi yazır və bununla yekəxanalanır, öyünür. Belələrinə deyilməlidir ki, səni ora qanunlar hazırlamaq, vətəndaşların sözünü demək üçün seçiblər, mahnı yazmaq üçün yox. Belələrinin yeri Milli Məclis yox, filarmoniyadır, ya da ki, konservatoriyadır. Getsinlər orada mahnılarını yazsınlar, parlamentdə boşuna yer məşğul eləməsinlər. Deputatın işi mahnı yazmaq deyil. Musiqi yazmağı daha üstün tuturlarsa getsinlər Fərhad Bədəlbəylidən xahiş etsinlər Fərhad da onları işə götürsün. Fərhadı gənc vaxtlarından tanıyıram və talantına da bələdəm. O mahnı yazan deputatları heç qapısından içəri qoymaz (gülür. E.S). Deputat hara, musiqi yazmaq hara. Ə, get deputatlığını elə də. Bax, bu biabırçılıqları mən xoşlamıram.

***- Amma bəzi musiqiçilər və müğənnilər deputatlıq iddialarını ortaya qoyduqları da məlumdur...***

- O deputatlar ki, mədəniyyət xadimləridir, yaradıcı insanlardır onların Milli Məclisdə olmaları vacibdir. Mən deputat olandan sonra gəlib mahnı yazmağa, əsər yazmağa, dram teatrda əsər qoymağa başlayanlara etirazımı bildirdim. Mən məhz belələrinin parlamentdə olmasını biabırçılıq hesab edirəm. Vaxtı ilə böyük bəstəkar Niyazi, böyük sənətkarlar - Müslüm Maqomayev, Lütfiyar İmanov deputat olublar. Biz onları parlamentdə görəndə az qalırdıq başlarına fırlanaq. Çünki onlar böyük şəxsiyyətlər idilər, öz sənətləri ilə Azərbaycanı, xalqımızı dünyaya tanıdırdılar. Biz onlardan öyrənirdik. Belələri ilə deputat olandan sonra "istedadları" ortaya çıxan adamları eyni tutmaq olmaz. Böyük sənətkar Zeynəb Xanlarova da deputatdır. Yadıma gəlir, 20 yanvar hadisələrində Zeynəb Xanlarovanın göstərdiyi cəsarəti, qeyrəti çox kişilər göstərə bilmədi. Videokameranı qadağan etmişdilər. Zeynəb xanımla rəhmətlik Tofiq İsmayılovla getdilər videokamera gətirdilər, sessiyanın çəkilişi aparıldı. Belə insanların parlamentdə olması lazımdır. Yüksək vəzifəli məmurlar və deputatlar var ki, iki gündən bir baxırsan bir musiqi yazdı. Adama deyərlər ki, musiqi yazansan o vəzifədən, deputatlıqdan get filarmoniyaya, nə gəzirsən parlamentdə? Bilirsiniz niyə belədir, həmin deputatlar Konstitusiyanı oxumayıb. Deputatlar var ki, Konstitusiyanı oxumayıb, bilmir, maddələrindən xəbəri yoxdur. Belələri deputatlıqdan sui-istifadə edirlər. Deputat xalqa xidmət göstərdiyi halda onlar özlərinə xidmət göstərirlər. Biznes quran adamlar parlamentdə oturmamalıdırlar. Gedən kimi qurduqları biznesi necə artırmaq, necə qorumaq barədə işə başlayırlar. Mənim bəzi nazirlərə yazığım gəlir. Mən deputat olan zaman yanıma bir şikayətçi gəlmişdi. Onun problemi ilə bağlı bir nazirə zəng elədim. Gördüm nazir gülür. Dedim görəsən bu nəyə gülür. Güldü və dedi ki, gəlsin yanıma məsələ həll olunar. Özümü pis hiss elədim və sonradan hökumət telefonundan zəng edib dedim ki, o nə hərəkət idi, adam yanımda ola-ola gülürsən. Dedi ki, biz nazirlərin qarşımızda deputatların siyahısı var və orada kimin ayda neçə dəfə və nəyə görə müraciət etdiyi göstərilir. Dedi ki, sizin adınızın qarşısı boş idi, nəhayət Maksim Musayevin zəng etdiyini, lakin şəxsi işi ilə bağlı deyil başqasının işi ilə bağlı xahiş etdiyinə güldüm. Nazir dedi ki, əşi, vallah deputatlar şəxsi işlərinə görə rahatlıq vermirlər bizə. Hətta dedi ki, o deputatların əlindən az qalır burdan qaçaq. İndi belə deputatlar bizə lazım deyil ki, orda oturan kimi şəxsi işləri ilə bağlı nazirlərin baş-beynini aparsın. Belə deputatların olması biabırçılıqdır. Görün, parlamenti nə vəziyyətə qoyublar ki, biri gəlir musiqi yazır, o birisi gedir dram teatrda əsərini tamaşaya qoyur. Bəxtiyar Vahabzadə kimi dahi deputat olduğu illərdə əsər qoya bilmirdi. Çünki onun nə maddi vəziyyəti, nə də vaxtı yox idi.

***- Deputatlığa namizədliyinizi vermək fikriniz varmı?***

- Mən elə həm də ona görə deputat olmaq istəmirəm ki, yuxarıda qeyd etdiyim bəzi "musiqiçi" deputatlarla yanaşı oturmaq istəmirəm. Bəziləri ilə yanaşı oturmaq mənim üçün fəxrdir, bəziləri ilə yanaşı oturmaq isə mənim üçün qəbuledilməzdir. Mən 2010-cu ildə parlament seçkilərində namizədliyimi verməmişəm. İndi də namizədliyimi irəli sürməyəcəyəm. 2000-ci ildə namizədliyimi Xətai rayonundan irəli sürdüm. Orada Əli Əhmədov mənə qarşı doğru olmayan hərəkətlər elədi. Bu, böyük bir mövzudur, o barədə geniş danışmaq istəmirəm. Əli Əhmədov rəhmətlik prezident Heydər Əliyevə də yalan sözlər demişdi. Mən o zaman məhkəməyə də müraciət etdim. Məhkəmədə də məsələyə başqa cür baxdılar. Sonra 2005-ci ildə namizədliyimi Qaxdan irəli sürdüm. O zaman da Əli Əhmədov mane oldu, aldatdı. Bundan sonra fikirləşdim seçkidə iştirak etməyə ehtiyac yoxdur. Əli Əhmədovun adı YAP-ın deputatlığa namizədlər siyahısında olsaydı mən bu siyahı haqqında mənfi fikir deyəcəkdim. Onun ki, adı siyahıda deyil, deməli mən partiyanın qərarını müdafiə edirəm. Arzu edirəm o adamlar seçilsinlər.



**"Belələrinin yeri Milli Məclis yox flarmoniyadır, ya da ki, konservatoriyadır"**

***- Sizcə, o siyahıdakı namizədlərin təxminən nə qədəri seçicilərin səsini qazanıb seçilmək şansına malikdir.***

- Bunu deyə bilmərəm. Seçki mübarizəsinin gərgin keçəcəyinə şübhəm yoxdur. Mən baş verənləri izləyirəm, cənab prezidentin də çıxışlarını dinləyirəm, camaatın fikirlərini də eşidirəm görürəm ki, bu seçkilərdə müəyyən gərginlik yaran bilər. Ona görə də gərək bizim partiya-YAP düzgün hərəkət eləsin. O mənada deyirəm ki, düzgün hərəkət eləsin, kimin namizədliyini siyahıda veribsə məhz həmin şəxsləri real müdafiə eləsin. Yoxsa ki, bir çox namizədlərə formal namizəd kimi münasibət sərgilənməsin. Məni Xətai rayonunda partiya namizədliyimi irəli sürmüşdü. Əli Əhmədov məni vurmaq üçün çalışdı. Təsəvvür edirsinizmi partiyanın deputatlığa namizədliyini irəli sürdüyü şəxsi partiyanın rəhbərliyinə daxil olan şəxs vurur, onun seçilməməsi üçün addımlar atır. Digər şəxslərlə də bağlı belə hallar baş verib, YAP-ın siyahısındakı namizədi kənara qoyub siyahıda olmayan başqa şəxsi müdafiə ediblər. Belə yanaşma düzgün deyil. Mən buna görə deyirəm ki, partiya siyahısına kimi daxil edibsə, onların hər birini real müdafiə eləsin. Mən Qaxdan namizədliyimi verəndə YAP-dan bir nəfər də yox idi, hamısı müxalifət partiyalarından idi. Müxalifət partiyalarını da Əli Əhmədov düzdü-qoşdu və mənim əleyhimə iş apardı. Mən istərdim ki, YAP bu seçkilərdə öz namizədlərini ciddi şəkildə müdafiə eləsin. Belə olsa problem olmayacaq.

***- Avropa Parlamentinin sərt qətnaməsindən sonra bir sıra siyasətçilər iddia edir ki, Qərb seçkidə qarışıqlıq yaratmağa, inqilabi situasiya yetişdirməyə hazırlaşır. Ölkəni qarışdıra bilərlərmi?***

- ...

*(davamı gələn sayımızda)*

❑ **Etibar SEYİDAĞA**

# Nəqliyyat nazirini hissə-hissə bitirirlər...

**Ziya Məmmədovun portfelsiz nazirə çevrilməsi və hökumət üzvlüyündən izolyasiya edilməsi barədə "Yeni Müsavat"ın yazdığı məlumat təsdiqləndi. Sentyabrın 18-də prezident İlham Əliyev fərman imzalayaraq "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 20 iyul 2009-cu il sərəncamında dəyişikliklər edib. Fərmanla "Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarılıb.**



## Ziya Məmmədovun "dəmir gəliri" də əlindən alındı

"Azərbaycan Dəmir Yolları" QSC Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarıldı; bu həm də yaxın illərdə dəmir yolundan gələcək ciddi maliyyə vəsaitlərinin Cavid Qurbanova etibar edilməsi deməkdir; Məmmədovlar klanı məğlubiyyətləri ilə tam barışıblar və hakimiyyətin bütün strukturlarından çəkiləcəklər...

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi Nazirlər Kabinetinə və Əmlak Məsələləri Dövlət Komitəsinə həvalə edilib.

Fərmana əsasən, cəmiyyətin sədrinin və sədr müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsini, cəmiyyətin yenidən təşkili və ləğvini prezident həyata keçirəcək.

***

Bu ilin fevralında Cavid Qurbanovun prezidentin sərəncamı ilə "Azəryolservis" ASC-nin sədrliyindən "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri vəzifəsinə təyin edilməsindən sonra bu qurumun tezliklə Nəqliyyat Nazirliyinin tabeliyindən alınacağı barədə xəbərlər dolaşırdı.

Z.Məmmədovun yaxın adamı, hətta " qara kassası" adlandırılan "Azərbaycan Dəmir Yolları"nın rəhbəri Arif Əsgərov nazirin tam təsiri altında idi və dəmiryolu sahəsindəki ciddi korrupsiya faktları asanlıqla ört-basdır edilirdi. Rəsmi məlumatlara görə, 2007-2014-cü illərdə dövlət büdcəsindən dəmir yolu təsərrüfatına 800 milyon manata yaxın vəsait ayrılsa da, araşdırmalar zamanı məlum olub ki, bu vəsaitin əhəmiyyətli bir hissəsi mənimsənilib.

Hakimiyyətdə ciddi dayaqları olan C.Qurbanovun bu vəzifəyə təyinatı yaxın illərdə dəmir yolundan gələcək maliyyə vəsaitlərinin faktiki Z.Məmmədovun nəzarətindən çıxarılması demək idi. C.Qurbanov, QSC-nin sədri vəzifəsinə təyinatından öncə, prezident İlham Əliyevlə görüşdüyünü, ölkə başçısından bu strukturla bağlı müxtəlif tapşırıqlar aldığını söyləmişdi. C.Qurbanov QSC sədri kimi ilk açıqlamasında "Azərbaycan Dəmir Yolları"nda aparılan islahatların günün tələblərinə cavab vermədiyini demişdi. C.Qurbanovun tezliklə nazir postunu tutacağı ilə bağlı xəbərlər son aylar daha da intensivləşsə də, onun YAP tərəfindən deputatlığa namizədliyinin irəli sürülməsi bu təyinatın gerçəkləşməyəcəyinə işarə sayıla bilərdi.

Üstəlik, səlahiyyətlərinin əhəmiyyətli hissəsinin itirən nəqliyyat naziri vəzifəsi indi müstəqil olan və Bakı-Tiflis-Qars dəmiryolunun payızda istifadəyə verilməsindən sonra milyardlarla vəsaitə nəzarət edəcək "Azərbaycan Dəmir Yolları" rəhbərindən aşağı post sayılır. Məlumdur ki, Bakı-Tiflis-Qars dəmiryolu layihəsi artıq oktyabr-noyabr ayında işə düşəcək. Bu həm sərnişinnəqliyyatda, həm də yükdaşımalarda Azərbaycanın Avropaya çıxışı baxımından önəmini daha da artıracaq. Dünyada neftin qiymətinin yaxın illərdə 50 dollar civarında qalacağı ilə bağlı proqnozlara rəğmən təbii ki, beynəlxalq dəmiryolu həm də külli-miqdarda büdcə vəsaiti deməkdir ki, ona nəzarət indi birbaşa müstəqil bir quruma və onun rəhbəri C.Qurbanova həvalə edilib.

Yeni fərman C.Qurbanova maliyyə məsələsində iqtidarın inamını göstərməklə yanaşı, onun rahat işləməsinə və Z.Məmmədovdan qalma kadrların "təmizlənməyə" də kömək edəcək.

Qeyd edək ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədrinin birinci müavini Əlirza Süleymanov, digər müavinlər Qurban Nəzirov, İqbal Hüseynov və Etibar Niftəliyev nazirin yaxın adamları hesab olunurlar. İqbal Hüseynovun isə bir vaxtlar Biləcəri stansiyasında Z. Məmmədovla birgə işlədiyi deyilir. QSC-nin adını çəkdiyimiz müavinləri prezidentin 2010-cu il 22 fevral tarixi sərəncamı ilə vəzifəyə təyin ediliblər. Böyük ehtimalla yaxın günlərdə C.Qurbanovun müavinlərinin adları da dəyişəcək.

Məlumatlara görə, hazırda hökumətdə səhmləri 100 faiz Nəqliyyat Nazirliyinə məxsus olan "Azəryolservis" ASC-nin də nazirliyin idarəetməsindən çıxartmaq məsələsi də müzakirə edilir. ASC-nin müstəqil və yaxud İqtisadi İnkişaf Nazirliyinin idarəetməsinə verilməsi variantları nəzərdən keçirilir. Üstün mövqe ASC-nin müstəqil fəaliyyət göstərməsindən ibarətdir. Xatırladaq ki, Z.Məmmədov fevral ayından bəri bu quruma rəhbər təyin edə bilmir.

Belə görünür ki, hakim komandadan qeyr-rəsmi uzaqlaşdırılan və rəsmi məlumata görə, hələ oktyabrın 23-dək məzuniyyətdə olacaq nəqliyyat nazirinin bundan sonrakı işi yalnız effektiv nəqliyyat siyasətinin işlənib hazırlanmasından ibarət olacaq. Nəqliyyat Nazirliyi Sənaye və Energetika Nazirliyi kimi, təsərrüfat fəaliyyəti ilə məşğul olmayan struktura çevriləcək.

***

Bir qaynağımızın məlumatına görə, Məmmədovlar klanı məğlubiyyətləri ilə tam barışıblar və hakimiyyətin bütün strukturlarından çəkiləcəklər. Nazirin qardaşı Elton Məmmədov "deputatlığa namizədlik haqda fikirləşirəm" desə də, onun bu yarışa indiki şərtlərlə altında qoşulmayacağı aydındır.

Amma unutmayaq ki, uzun illərdir ki, geniş imkanlara sahib olan Z.Məmmədov klanın ölkə iqtisadiyyatının demək olar ki, bütün sahələrində yatırımı var. Məmmədovların ailə şirkəti olan "Garant-Holdinq"in adını çəkmək kifayət edir. Bu səbəbdən də ola bilsin, "təhvil-təslim" və iqtidardan çəkilmə zaman aparsın və Z.Məmmədov formal olaraq nazir kimi bir müddət də görəvində saxlansın.

***

Məmmədovların vurulması səbəbləri sırasında "maliyyə xəyanəti"ndən tutmuş nazirin yaxın adamlarının hərəkətləri, cəmiyyətdə harın obrazlılarının səbəb olduğu deyilir.

**Amma hökumətə yaxın mənbələr nazirin vurulmasının əsas səbəbi kimi məhz "Olimpiya kəndində" baş vermiş qəzanı göstərirlər. Xatırladaq ki, Avropa Oyunlarının açılış mərasimindən bir gün əvvəl - iyunun 11-də "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus"a məxsus avtobus hərəkət zolağından çıxaraq piyadalar üçün səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvlərinə ağır bədən xəsarətləri yetirmişdi. İddia olunurdu ki, bu qəzanın baş verməsi səbəbləri hakimiyyət üçün hələ də şübhəlidir və hətta "vəhhabi izi" də araşdırılır. Məhz bu olaydan sonra nazir prezidentin ətrafında görünmədi, onun qardaşı oğlu Rövşən Məmmədovun rəhbərlik etdiyi "Transqeyt" MMC şəhər nəqliyyatından çıxarıldı və Nəqliyyat Nazirliyinin səlahiyyətləri alınması prosesi başladı...**

❑ **"Yeni Müsavat"**

# Azərbaycana sığınan erməni müxalifətçidən şok açıqlamalar

**Vaan Martirosyan:** "Ermənistan ordusu korrupsiya içində üzür", "Oradakı doğmalarımızdan narahatıq"; erməni ailəsinin gəlişinə siyasi və hüquqşünas rəyləri...

**Ermənistan "Milli Azadlıq Hərəkatı" təşkilatının rəhbəri Vaan Emilyeviç Martirosyanın ailəsi ilə birlikdə Azərbaycana qaçması barədə məlumat vermişdik. Sarkisyan rejiminin təzyiqlərindən bezən ailə son ümid yeri kimi ölkəmizi görüblər.**

Hüquq müdafiəçisi Novella Cəfəroğluna müraciət edən Vaan Martirosyan Ermənistandakı mövcud rejimin ona qarşı etdiyi fiziki və mənəvi zorakılıqdan bezdiyini, Sarkisyan hakimiyyətinin basqısı nəticəsində ana bətnində olan övladını itirdiyini və başqa yolu olmadığına görə Azərbaycana gəlmək istədiyini bildirib. Martirosyanın Azərbaycandan siyasi sığınacaq almaqla bağlı müraciətinə müsbət cavab verilib. Bu barədə APA-ya açıqlamasında deputat Azay Quliyev məlumat verib.

**Ölkəmizə pənah gətirən erməni ailəsi sentyabrın 18-də mətbuat konfransı keçirib. Vaan Martirosyan özünün və həyat yoldaşının düşmən ölkədə qalan ailəsindən ciddi narahat olduğunu bildirib:** "Mənim Ermənistanda anam qalıb, həyat yoldaşımın isə qardaşı və anası oradadır. Mən BMT və Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı ofislərinə mənə köməklik göstərilməsi ilə bağlı müraciət edirəm. Mən bu müraciəti ona görə edirəm ki, Sarkisyan hakimiyyətinin necə hərəkət edəcəyini bilirəm. Onlar mənim anamı Ermənistan təhlükəsizlik xidmətinin zirzəmisində gizlədə bilərlər. Mən BMT və BQXK-dan onlar xaricə köçənə kimi ailəmin ilkin təhlükəsizliyini təmin etməsini xahiş edirəm. Bizim bura gəlişimizdən sonra Ermənistan hökumətinin, xüsusi xidmət orqanlarının necə hərəkət edəcəyini, hansı metodlardan istifadə edəcəyini çox yaxşı bilirik".

**Erməni müxalifətçi düşmən ölkədə insanların sosial durumlarının aşağı olduğunu qeyd edib:** "Ermənistan paytaxtı İrəvan mərkəzində iki kilometrlik ərazidə imitasiya yaradıblar ki, guya ofislər, şirkətlər işləyir. Lakin bir az getdikdə əhalinin acınacaqlı vəziyyəti görünür, binalar dağılmış, yollar pis vəziyyətdədir. İnsanlar yeməyə güclə nəsə tapırlar. Ən acınacaqlı durum isə Qarabağ veteranlarındadır. Onlara ev, sosial yardım verilmir. Ölkədə təqaüdlərin səviyyəsi olduqca aşağıdır. Mənim nənəm Sovet dövründə yüksək vəzifədə işləyib və hazırda 100 dollar pensiya alır. Ermənistanda rüşvətsiz sahə tapmaq qeyri-mümkündür. Nümunə kimi bu ölkədə kənd məktəblərində müəllim kimi işə düzəlmək 3 min dollar, şəhər məktəblərində isə 10 min dollardır".



Vaan Martirosyan

**Vaan Martirosyan Azərbaycanda mehribanlıqla qarşılandığını söyləyib:** "Burada mənə və ailəmə qarşı heç bir təzyiq göstərilmir. Mən Ermənistanda cinayətkar Sarkisyan rejiminə qarşı mübarizə apardığım üçün təzyiqlərə məruz qalırdım. Odur ki, Sarkisyanın adamları məni və ailəmi döyüb, təhqir ediblər. Sarkisyan öz rejiminin müddətini artırmaq üçün Avropa Komissarına 10 milyon dollar rüşvət verməyə hazırdır. Ermənistan ordusu korrupsiya içində üzür. Ölkədə hamı bu qurumda hansı vəzifənin neçəyə olduğunu yaxşı bilir. Hətta 100 dollar verməklə istənilən şəxs, Ermənistan hərbi hissələrindən "Kolaşnikov" tipli avtomatı çox rahatlıqla ala bilər".

İndiyə qədər ölkəmizə düşmən ölkədən sığınacaq üçün müraciət edənlərin sayı kifayət qədər olub. Dünya praktikasında siyasi sığınacaq üçün müraciət edən şəxsin 3-cü ölkəyə keçmək kimi də şansları var. Erməni ailəsinin hansı addımı atacağını isə zaman göstərəcək.

Erməni müxalifətçinin ölkəmizə gəlişi, buradan sığınacaq istəməsinin Azərbaycan müxalifəti tərəfindən necə qarşılanacağı maraq doğurur.

**Müsavat başqanının müavini Elman Fəttah** hesab edir ki, erməni ailəsinin gəlişi Azərbaycan və Rusiya xüsusi xidmət orqanlarının əməliyyatına bənzəyir: "İnsan haqlarının məhdudlaşdırılması uğrunda mübarizə aparan bir şəxs avtoritar bir rejim olan Ermənistandan digər avtoritar bir ölkəyə qaçması çox absurddur. O, sığınacaq üçün daha normal bir Avropa ölkəsinə müraciət edə bilərdi. Ermənistanda qeddar bir rejimin olduğu doğrudur. Amma müxalif fikirli bir şəxsin digər avtoritar rejimə keçməsi mənim üçün çox qaranlıqdır. Bütün müxalifət adından danışa bilmərəm. Amma belə bir şəxslə görüşməyi özümə lüzum bilmirəm. Məsələnin mahiyyətini müşahidə etdikcə üzə çıxacaq".

ADP sədri Sərdar Cəlaloğlu belə məsələlərdən siyasi yöndə istifadə etməyin qəti qadağan olunduğunu qeyd etdi: "SSRİ respublikalarında vəziyyət eynidir. Ermənistandakı vəziyyəti oradan qaçan bir müxalifətçinin dilindən eşitmək obyektiv olmaz. O, şəxs baş verənləri müxalifətçi nöqteyi-nəzərindən çatdıracaq. Azərbaycan hakimiyyəti ölkəni çiçəklənən, inkişaf edən bir ölkə kimi təqdim edir. Amma müxalifət tamam fərqli şeylər deyir. Bu baxımdan oradakı vəziyyət barədə düzgün məlumat almaq çətindir. Onun nə qədər səmimi olduğunu söyləmək çətindir. Şəxsən mən Azərbaycandan getsəm belə, dövlətim və xalqımın maraqlarını heç kəsə satmaram. Bu baxımdan onunla görüşməyimizin heç bir mənası yoxdur".

**Hüquqşünas Müzəffər Baxış** siyasi sığınacağın verilməsi proseduralarından danışdı: "70-ci maddəyə görə, Azərbaycanın hüquq normalarına əsasən, siyasi sığınacaq üçün müraciət etmiş şəxsə siyasi sığınacaq verilə bilər. Bu məsələlərdə hakimiyyət diqqətli olmalıdır. Çünki ermənilərin necə xislətli olduqları bütün dünyaya bəllidir. Ölkəmizə gələn həmin şəxsdən kəşfiyyatçı kimi istifadə edə bilərlər. O, şəxsə sığınacaq verilib-verilməməsi ciddi araşdırılmalıdır. Bunun nəticələri əsasında müvafiq qərar verilməlidir. Bundan əlavə, həmin şəxs buradan başqa ölkələrə də keçə bilər. Bunun üçün ona kömək də edilə bilər".

❑ **Cavanşir ABBASLI**



# O, bir daha qayıtmayacaq...

Hüseynbala SƏLİMOV

**Bunu tamamilə təsadüfən gördüm. Rusiya saytlarına baxırdım. Birdən gözüm bir xəbərə sataşdı - tanınmış aktyor Mixay Volontir vəfat edib... Bu adamı bizim məşhur "Tütək səsi" filmindən tanıyırdım... Sonradan o, İttifaq miqyaslı məşhura çevrildi. Hətta şəklini köşklərdə satırdılar. Amma bunun mənim üçün elə bir əhəmiyyəti yox idi. Ona görə ki, onun baş rolda oynadığı "Qaraçı" və "Budulayın qayıtması" filmləri də yaddaşımda elə bir iz buraxmamışdı...**

Amma onun Cəbrayılı... Bax, bu haqda yazmağa dəyər. Bu filmdə hər şey diqqətə layiq idi. Ssenari müəllifi İsa Hüseynov idi - İsa Muğanna... Rejissor Rasim Ocaqov. Cəbrayıl rolunda isə M.Volontir...

Artıq bir dəfə bu film haqqında yazmışam. Mənə elə gəlir ki, bu, müharibə haqqında Azərbaycanda çəkilmiş ən gözəl filmdir. Bəlkə də ona görə gözəldi ki, onun ssenarisini İsa Hüseynov yazmışdı - mənim ən çox sevdiyim Azərbaycan yazıçısı. Bir daha təkrar edirəm ki, filmə Rasim Ocaqov kimi bir rejissor quruluş vermişdi. Əsas rollardan birini isə M.Volontir oynayırdı... Hələ İsfəndiyar kişini oynayan M.Şeyxzamanovu və Qılınc Qurban rolunu ifa edən ən sevimli aktyorumu demirəm - bəli, söhbət Yusif Vəliyevdən gedir...

Cəbrayıl rolunu bizim mərhum aktyorumuz Şahmar Ələkbərov səsləndirirdi. Bu da filmə, xüsusən də rola qeyri-adi bir cazibə verirdi. Şahmar Ələkbərovun çox gözəl səsi və ifadə tərzi vardı...

Qərəz, film haqda nə lazım idisə, hamısını yazdım. İndi rahatca düşüncələrimə keçə bilərəm. Maraqlıdır, sən demə, M.Volontir də Moldovanın müstəqilliyinin yorulmaz tərəfdarı imiş. Siyasi cəhətdən fəallıq edir, hətta yeri gələndə imperialist Moskvanı qamçılamağa da cəsarəti çatırmış...

Bu detal məni xüsusilə maraqlandırdı. Nə gizlədim, neçə illərdir özümə deyirəm ki, bəlkə düz etmirəm? Axı ömrümün ən maraqlı anları elə Rusiyada keçib! Orada təhsil almışam, orada bir intellekt adamı kimi formalaşmışam. Rusiya və onun mədəniyyəti, ümumiyyətlə, bir insan kimi formalaşmağımda müstəsna rol oynayıb...

Amma bütün bunlara rəğmən düz üçüncü on illikdir ki, Rusiyanın imperialist siyasətini ifşa etməyə çalışıram. Düz edirəmmi?

İlk dəfə oxuyanda ki, sevdiyimiz belorus yazıçısı V.Bıkov da Belarus Xalq Cəbhəsinin ən fəal üzvlərindən biridir, bir az təskinlik tapdım. İndi də oxudum ki, gözəl aktyor - M.Volontir də ölkəsinin müstəqilliyi uğrunda fəallardan biri olub...

Ona görə də peşman deyiləm... Mənim üçün həmişə başqa bir Rusiya da olub. O Rusiya ki, V.Bıkovu sevirdi!.. O Rusiya ki, M.Volontirin ölümündən ağrı ilə xəbər verir, onun haqqında gözəl artist və həm də böyük Moldova patriotu kimi danışa bilir...

Bu Rusiyaya qarşı heç bir iradım yoxdur. Əksinə onu çox sevirəm. Bəli, bu Rusiya müstəmləkələrinə həm də gözəl, böyük ideyalar gətirmişdi...

O ki qaldı siyasətçilərin Rusiyasına, bəli, ona irad bildirmək olar. Özü də istədiyin qədər... Nə isə. Bu məsələnin üstündə çox da dayanmaq istəmirəm və güman edirəm ki, fikrimi çatdıra bildim...

M.Volontir mənə həm də bizim mərhum aktyorumuz Ə.Abbasovu xatırladırdı.

Ə.Abbasov bütün ömrünü Gəncədə yaşadığı kimi M.Volontir də Moldovanın əyalət teatrında çalışmışdı...

Amma istedada nə demək olar? Nə qədər çalışsan da, onun önündə sədd çəkə bilməzsən, o, bütün sədləri aşacaq!..

Əvvəldə dedim ki, Volontir keçmiş İttifaqın kino ulduzu idi. Əlavə edim ki, o, həm də SSRİ xalq artisti idi...

Bu insanlarla birgə bizi böyük bir epoxa tərk edir. Yox, hamı kimi mən də başa düşürəm ki, zamanın axarı qarşısında hamımız acizik. Lap uzağı gərdişə qarşı bir "Ruhani" havası ilə etiraz etmək olar - "Tütək səsi" filmində İsfəndiyar kişinin ifa etdiyi "Ruhani" havası kimi...

Başqa nə demək olar? Hə, onu da deyim ki, Volontir elə "Qaraçı" filmində də çox sevilmişdi. Hər halda, Budulay o vaxtlar İttifaqda məşhur ada çevrilmişdi. Onu dilə gətirmək kifayətdi ki, hamı söhbətin kimdən getdiyini başa düşsün...

**Elə bu səbəbdən bəlkə də sovet sosio-kulturoloji məkanının dağılmasına acımaq olar. Daha heç bir vaxt bu məkan bərpa olunmayacaq. Düzdür, indi də rus dilini bilənlər az deyil. Amma onlar sadəcə, dil bilirlər. O vaxtlarsa böyük bir mədəniyyət məkanı vardı - bu, elm, ədəbiyyat, sənət, teatr və kino məkanı idi. Ondan bir daha olmayacaq. Necə ki, Volontir də bir daha qayıtmayacaq...**

---



# İsa Qəmbər 2018-ci ilə ümidlidir

## Milli Strateji Düşüncə Mərkəzi hakimiyyətə iki təklif verdi

**İsa Qəmbərin rəhbərlik etdiyi Milli Strateji Düşüncə Mərkəzinin toplantısı keçirilib. Toplantıda bir sıra aktual problemlər, o cümlədən ölkəmizdə getdikcə ağırlaşan sosial-iqtisadi vəziyyət, siyasi məhbuslar məsələsi, antidemokratik şəraitdə keçən seçki prosesi, beynəlxalq birliklə münasibətlərin gündən-günə gərginləşməsi müzakirə edilib.**

Toplantı iştirakçılarını ən çox narahat edən məsələlərdən biri işğal altında olan torpaqlarımızın bir qisminin azad edilməsi adı altında Rusiya ordusunun "sülhməramlı" qüvvələrinin ölkəmizdə yerləşdirilməsinə, Qarabağın dağlıq hissəsinin Azərbaycandan birdəfəlik qoparılmasına və dövlət suverenliyimizin məhdudlaşdırılmasına gətirib çıxara biləcək bir planın mövcudluq əlamətlərinin artması olub. Müzakirələrdə çıxış edən ziyalılar və ictimai-siyasi xadimlər qeyd edilən problemlərin ölkəmizi böhran mərhələsindən çıxılmazlıq mərhələsinə apara biləcəyini vurğulayıblar.

MSDM hesab edib ki, bütün bu mənfi tendensiyaların qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər-ölkədə korrupsiya, rüşvətxorluq və inhisarçılığa, insan haqlarının kütləvi qaydada pozulmasına son qoyulması, əhalinin sosial-iqtisadi vəziyyətinin reabilitasiyası və haqq-ədalətin bərpası, beynəlxalq birliklə münasibətlərin tənzimlənməsi və avroatlantik inteqrasiya istiqamətində addımlar atılması zəruridir.

**MSDM hakimiyyəti ilk növbədə xüsusi zaman və enerji tələb etməyən iki təcili qərarın qəbul edilməsinə çağırıb:** Bütün siyasi məhbusların azad edilməsi; 1 noyabrda keçiriləməsi nəzərdə tutulan seçkilərin müşahidəsində iştirak etmək üçün ATƏT-in Varşava bürosunun əvvəlcədən təklif etdiyi kimi 380 müşahidəçinin ölkəmizə gəlməsinə razılıq verilməsi.

**MSDM sədri İsa Qəmbər isə özünün facebook səhifəsində müxalifətin və cəmiyyətin əsas hədəfinin 2018-ci illə bağlı olduğu haqda status yazıb. İsa Qəmbər qeyd edib ki, 2018-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsinin 100 illiyi tamam olacaq. Odur ki, 2018-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsinin 100 illiyi Azərbaycan və Türkiyədə dövlət səviyyəsində qeyd edilməlidir. İsa Qəmbər 2018-ci ilin Azərbaycan üçün ən həlledici ili olacağını yazıb, həmin ildə Azərbaycanın Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü və prezident seçkiləri olacağını da xatırladıb:** "2018-ci il Azərbaycan tarixinin ən həlledici illərindən biri olmalıdır və olacaq. Bunu gerçəkləşdirmək üçün 3 il əzm və inamla çalışmalıyıq və çalışacağıq".

❑ E.SEYİDAĞA

---

# "AĞ blok"un namizədlərinə qarşı təzyiqlər başlayıb

## Qurumun iki namizədi imza vərəqlərini ala bilmir; MSK-ya müraciət olunacaq

**Noyabrın 1-də parlament seçkilərində iştirak edəcək qurumlardan "AĞ blok"un namizədlərinə problemlər yaradılır. Belə ki, qurumun iddiaçılarından Kərim Ağarza və Elşən Həsənov imza vərəqlərini ala bilmirlər.**




Bu barədə müsavat.com-a namizədlərin özləri məlumat veriblər.

60 saylı Salyan-Neftçala seçki dairəsindən namizədliyi "AĞ blok" tərəfindən irəli sürülən Kərim Ağarza bildirdi ki, sənədlərini qanuni şəkildə Dairə Seçki Komissiyasına təqdim etməsinə baxmayaraq, ona imza vərəqlərinin verilməsi yubadılır: "Parlament seçkilərində "AĞ blok"un həmtəsisçilərindən biri olaraq, seçkilərdə namizəd olmaq qərarı vermişəm. Yaşadığım ərazinin Dairə Seçki Komissiyasına namizədliyimlə bağlı müraciət etdim. Dairədən mənə namizəd olmaq üçün, tələb olunan sənədlərin siyahısı verildi. Bütün sənədləri təqdim etsəm də, məqbul hesab etmirlər. Dairə Seçki Komissiyasına bir həftədən artıqdır ki, müraciət etməyimə baxmayaraq, imza vərəqlərini vermirlər. Səlahiyyətli nümayəndəm Nəsib Qarayev də dəfələrlə maraqlanıb, sadəcə olaraq yubadırlar. Məqsəd məni seçkilərdən kənarda qoymaqdır. Çalışırlar ki, bunu imzatoplama kampaniyama mane olmaqla həyata keçirsinlər. Sona qədər haqlarımı müdafiə edəcəm. Artıq günlər də qısalır. İmza vərəqləri gec verilsə, imzaları çatdırmamaq ehtimalım var. Hesab edirəm ki, bu gənc olaraq, "AĞ blok"dan namizəd olmağım, rayonda olan nüfuzumla əlaqədardır. Yaxın günlərdə imza vərəqələri verilməsə, Mərkəzi Seçki Komissiyasına müraciət etməyi düşünürəm".

**Blokun 27 saylı Sabunçu ikinci seçki dairəsindən olan digər namizədi, hüquq müdafiəçisi Elşən Həsənov da imza vərəqlərini almaq problemi ilə üzləşib: "7 gündür sənədləri təqdim etmişəm. Amma imza vərəqələrini ala bilmirəm. Heç bir səbəb gətirmədən yubadırlar. Bu isə, imzatoplama kampaniyama ciddi zərbədir. Məqsəd "AĞ blok"un namizədlərinin qarşısına sədd çəkməkdir. Qəzetiniz vasitəsilə, MSK sədri Məzahir Pənahova səslənirəm ki, bu qanunsuzluğa son qoyulsun".**

❑ Cavanşir ABBASLI

---



# Ən yaxın adamı Əli Kərimliyə qarşı

## Sahib Kərimov AXCP sədrliyinə namizəd oldu: "Əli bəyin də zəif tərəfləri var"

**AXCP Rəyasət Heyətinin üzvü, Əli Kərimlinin ən yaxın adamlarından biri olan Sahib Kərimov şok açıqlama yayıb. O, facebook səhifəsində yazıb: "Dostlar, AXCP sədrliyinə namizədliyimi elan edirəm.**

Hörmətli sədr Əli Kərimli çağdaş Azərbaycan siyasətinin görkəmli simalarından biridir, hal-hazırda cəmiyyətdəki protest elektoratın ümidlə baxdığı liderdir. Hamının olduğu kimi Əli bəyin də zəif tərəfləri var. Demokratiyanın verdiyi fürsətlərdən yararlanaraq, siyasi mədəniyyət və əxlaq çərçivəsində, Əli bəylə yarışmaq istəyirəm. Mən 16 yaşımdan cəbhəçiyəm, 25 illik siyasi fəaliyyətim var, məhbus həyatı yaşamışam, tanıyan dostlar azad adam kimi xarakterizə edirlər. Azadlığımı heç kimə, o cümlədən atdığı yanlışlarla özünü hər gün fəlakətə aparan hakimiyyətə heç vermərəm. Heç kim uzağa gedən nəticələr çıxarmasın. Mən qurultaydan sonra sıravi cəbhəçi olaraq qalacam. Heç kim məni çirkin və namərd oyuna qoşa bilməz. Partiya daxilində sədri tənqid etmə ənənəsini mən möhkəmlətmişəm. Yuxarı və orta səviyyəli funksionerlər yaxşı bilirlər ki, sədrin yaxın ətrafının partiya daxilindəki pozuculuq fəaliyyəti illərdir hədəfimdədir. Hörmətli sədri də onları himayə etdiyindən partiya idarəetməsində kollegiyallığın qrup oyunları ilə əvəzlənməsinə imkan tanıdığı üçün dostcasına tənqid etmişəm. Sədrliyə namizəd olmağıma düşmən münasibət gözləmirəm, rahatam. Qələbə şansım azdır, amma pozitiv işlər görəcəyimə inanıram. Fərqli düşüncəm var və bunu illərdir ifadə edirəm. Partiya ideoloji boşluqdadır. Maraqlı müzakirələr açıla bilər. Tənqidlərim kollegial idarəetməni təşviq edəcək. Əli bəyin demokratlığına və tolerantlığına şübhə edənlər az deyil. Mənə danışma və yarışma imkanı tanınsa , bundan da pozitiv yararlanma imkanı olacaq.

Ən başlıcası demokratik seçki vərdişlərinə yiyələnmək üçün fürsət yaranacaq. Partiyadaxili demokratiyanın nümunələrini sərgiləməklə, bütün ölkəyə pozitiv mesaj verə bilərik".

Qeyd edək ki, AXCP sentyabrın 27-nə qurultay təyin edib. Tədbirdə partiyaya yeni sədr seçiləcək.

Hazırda AXCP-ni iki hissəyə parçalayan, Etimad Qurultayı üzrə Təşkilat Komitəsinə rəhbərlik edərək qurultaya hazırlaşan Razi Nurullayev Ə.Kərimliyə rəqib olacaq bir şəxsə qurum daxilində isti münasibətin olmayacağını söylədi: "Açığı bu barədə danışmağı lüzum bilmirəm. Çünki, bu məsələ mənim üçün maraqlı deyil. Mediada məlumata rast gəldim. Deyə bilmərəm ki, bu tipli məsələlər nəisə dəyişə bilər. AXCP-də namizədliyini verən şəxsə isti yanaşılmayacaq. Razılaşdırılmamış məsələlər daim problem yaradır. Sədr hər şeyi nəzarət altında saxlamaq istəyər. Sahib Kərimlinin nüfuzu barədə məlumatsızam".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 208 (6236) 19 sentyabr 2015

# "Seçicilər hakimiyyətdən onlara səs verməyəcək qədər narazıdır"

## İqbal Ağazadənin və Günel İbadovanın imzaları yoxlanıb, namizədlikləri qeydə alınıb

**35 saylı Xətai üçüncü seçki dairəsindən namizədliyi irəli sürülmüş Ümid Partiyasının sədri İqbal Ağazadənin və 92 saylı Zərdab-Ucar seçki dairəsində millət vəkilliyinə namizədliyi irəli sürülmüş Günel İbadovanın imzaları yoxlanıb və Seçki Məcəlləsinə uyğun olaraq namizədlikləri qeydə alınıb.**

**20-dən artıq namizəd artıq imzaların toplanmasını yekunlaşdırıb, 10 namizəd isə artıq imza vərəqlərini DSK-ya qaytarıb.**

Ümid Partiyası seçkilərə həmişə fərqli yanaşıb. Seçki yolu ilə dəyişikliyin ideal olduğunu, inqilabların ölkələrə xaos, vətəndaş müharibəsi, səfalət, qarışıqlıq gətirdiyini bildirərək, seçki qurtaran kimi seçki hazırlıqlarına başlamaq bu partiya uçub bir prinsip olub. Hakimiyyət seçki ənənəsini unutdurmağa çalışsa da əksinə, partiya seçki ənənəsinin ortadan qalxmaması üçün, prosesin getməsi üçün böyük bir çaba verib. Bunun nəticəsidir ki, artıq Partiya tam hazır vəziyyətdə bütün partiyalardan əvvəl seçkilərə start verdi. Eyni zamanda ilk olaraq MSK-ya, DSK-lara zəruri olan sənədləri təqdim etdi. Seçkiyə qatılan hər bir kəsdən öncə imza vərəqləri götürüldü və imza toplama kampaniyasına başladı. Bu bir daha Ümid Partiyasının seçki taktikasının doğru olduğunu sübut edir. Partiya 80-dən artıq namizədlə seçkiyə qatılıb.

Ümid Partiyasının Seçki Qərargahının məlumatına görə, Namizədlərin imza toplama kampaniyası davam edir. 20-dən artıq namizəd artıq imzaların toplanmasını yekunlaşdırıb. 10 namizəd artıq imza vərəqlərini DSK-ya qaytarıblar.

**Qərargahdan bildirildiyinə görə seçki kampaniyası dövründə namizədləri ən çox narahat edən seçici aktivliyinin olmamasıdır:** "İnsanların bir çoxu bu il seçki ili olduğundan belə xəbərsizdir. Seçki ili olduğunu bilib biganə yanaşanların da sayı az deyil. Demək olar ki, əksər seçicilərdə belə rəy formalaşıb ki, seçkilər ədalətli və demokratik keçirilmir. Hakimiyyət kimi istəyirsə, o da qalib olur. Bu rəyi uzun illər hakimiyyət formalaşdırıb. İnsanların seçkilərə güvəni azalıb.

ÜMİD PARTİYASI

Problemlərdən biri də seçicilərin bir çoxunun qeydiyyatda olduğu ünvanı tərk etməsidir. Bu daha çox narahat edici məqamlardır. Mərkəzdə- xüsusi ilə Bakı və ətraf rayonlardakı ünvanlarda daha çox ərazidə qeydiyyatda olmayan kirayədə yaşayan vətəndaşlara rast gəlinir. Bu isə daha ciddi problemlərdən xəbər verir. Bu cür seçicilər aktiv seçki hüquqndan istifadə edə bilmir, prosesə qoşulmur. Onun prosesə qoşulmaması isə seçki günü saxtakarlığın baş verməsinə rəvac verir".

**Seçki Qərargahından əlavə olaraq bildirilib ki, ölkədə seçki əhval-ruhiyyəsi hiss olunmasa da, Ümid Partiyasının namizədlərinin çoxunda yüksək əhval-ruhiyyə, mübarizə ruhu var.** Seçicilər hakimiyyətdən onlara səs verməyəcək qədər narazıdır. Və bizi həvəsləndirən amillərdən biri də budur. İnanırıq ki, hakimiyyətdən narazı olan bütün qüvvələr bizim namizədlərə səs verəcək, bizimlə olacaq, bizim qələbəmizə köməklik göstərəcəklər. Ona görə də işimiz həddindən artıq çox və şərəflidir, mübarizə ruhumuz yüksəkdir.

❑ **Ümid Partiyasının Mətbuat Xidməti**

---

**Sabit vətəndaş cəmiyyətinin və hər bir dövlətin mütərəqqi inkişafının əsasını demokratik seçkilər təşkil edir. Ümumiyyətlə, hər bir dövlətin inkişafının demokratik seçkilərdən də asılı olması heç kimə sirr deyil. Ona görə ki, seçkilər vətəndaşların cəmiyyətin ictimai-siyasi həyatında iştirakının ən kütləvi formasıdır. Vətəndaşların dövlətin idarə olunmasında iştirak hüquqlarını əsasən seçkilər vasitəsilə həyata keçirdikləri də məlumdur. Bu zaman hakimiyyət də idarə olunanların razılığı ilə legitimlik qazanır və bu razılığı hökumətin səlahiyyətinə çevirən ən əsas mexanizm də azad, ədalətli və obyektiv seçkilərin keçirilməsidir.**



**Həcər ABBASLI**
**Ümid Partiyası Gender Bərabərliyi şöbəsinin müdiri**

# "Müxalifətin güclü olması seçkilərdə coşqu yarada bilmişdi"

## Əgər seçicimizin-seçki iştirakçılarının seçkilərə inamı aşağıdırsa, təbii ki, o zaman beynəlxalq müşahidəçilərin də seçkilərə o qədər də marağı olmur

Şəffaflıq, ədalətlilik və obyektivlik də demokratik seçkilərin əsas şərtləri hesab edilir. Seçkilərin bu mühüm prinsiplərə uyğun keçirilməsi də xalqın ümumi iradəsinin milli mənafelər ətrafında birləşdirilməsi kimi amil rolunu oynayır.

Seçki Məcəlləsinin seçkilər sahəsində bütün qanunvericilik normalarını özündə əks etdirməsi beynəlxalq mütəxəssislər tərəfindən də təsdiqlənmişdir. Avropa standartlarına uyğun tərtib olunmuş məcəllə Azərbaycanda prezident, parlament və bələdiyyə seçkilərinin, həmçinin, referendumun keçirilmə qaydalarını müəyyənləşdirmişdir. Amma bu qaydalara hansı səviyyədə əməl olunduğu göz qabağındadır. Ötən il keçirilən bələdiyyə seçkisi əvvəlki seçkilərdən heç nə ilə fərqlənmədi. Sadəcə bəzi nüanslar oldu. Bu bələdiyyə seçkiləri əvvəlki seçkilərdən sakit və səssiz bir seçki idi. Eyni zamanda, bu seçkilərdə kütləvilik yox idi. Bu, onun göstəricisidir ki, artıq Azərbaycanda seçki missiyasının tərkibi dəyişməlidir, heç olmasa adamlar dəyişməlidir. Yəni hər seçkidən-seçkiyə seçicilərin etimadsızlığı, inamsızlığı geriyə gedir. Bax, bu, ölkədə çox ciddi seçki islahatlarının aparılmasını zəruri edir. Həm qanunvericilik həm də Azərbaycanın bələdiyyələrlə bağlı Avropa Şurası qarşısında götürdüyü öhdəliklərlə bağlıdır.

**Ötən dövrdə bələdiyyə statuslarının genişləndirilməsi, islahatların aparılması ilə bağlı real ciddi addımlar atılmadı.** Seçki prosesinin gedişi həm də onu göstərdi ki, artıq bu seçkidə lər sahəsində çox ciddi islahatlar olmalıdır. Seçkilər göstərdi ki, bələdiyyələrin statusu genişləndirilməlidir, əhalinin inamı artmalıdır. Namizədlərdə kütləvilik ona görə yox idi ki, real bələdiyyə səlahiyyətlərinin nə olduğunu onlar bilirdi. Eyni zamanda, seçkilərin ədalətliliyi məsələsi. Proseslər göstərdi ki, indiki seçki kosahəsində, həm də praktiki olaraq islahatlara ehtiyac var.Artıq ikinci dəfədir ki, ölkədə keçirilən seçkilərdə beynəlxalq müşahidəçilər iştirak etməyəcək. Əslində səbəb yenə də bələdiyyələrin statusu, seçkilərin ədalətliliyi, kütləviliyi ilə bağlıdır. Bu, bir növ seçkidə coşqular, ədalət, inam məsələsidir. Əgər yerli seçicimizin, seçki iştirakçılarının seçkilərə inamı aşağıdırsa, təbii ki, beynəlxalq müşahidəçilərin də belə seçkilərədə iştiraka o qədər də maraqlı olmur. Bu, ciddi alternativlər yoxdursa, seçkidə coşqu, ədalətli rəqabət olmayıbsa, sadəcə müşahidəçi heç nəyi dəyişməyəcək. Bu baxımdan, yerli seçici etimadsızlığı həm də bu seçkilərin beynəlxalq aləmdə bir növ diqqət mərkəzindən kənarda qalmasına gətirib çıxaran amillərdən biridir. Yəni bu da bir daha göstərir ki, ölkədə bələdiyyə institutları və seçki islahatlarına ciddi ehtiyac var. Əks halda qarşıdan gələn növbəti seçkilərdə daha xoşagəlməz vəziyyətin yaranması mümkün ola bilər. Bu baxımdan indiki halda bələdiyyə seçkilərində də, parlament seçkilərində də seçkilərin tam demokratikliyini əldə etmək mümkün deyil, amma müəyyən qədər fəallıq heç nəyi dəyişməyəcək. Məsələn, 1998-ci il, 2003-cü il, nisbətən 2005-ci il seçkilərində insanların marağı, seçki ilə dəyişikliyə inamı, müxalifətin güclü olması seçkilərdə coşqu yarada bilmişdi. İnsanlar həm aktiv, həm də passiv seçki hüququndan istifadə etməkdə maraqlı idilər. Bu səbəbdən beynəlxalq güclər də seçkini müşahidə etməkdə daha maraqlı görünürdülər.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Kirvə, xoş gəlmisən

Zamin HACI
zaminhaci@gmail.com

"Bax, belə! ... eləcə! ... əcəb! ... afərin! ... eləcə! ... eləcə! ... (və axırda yüzbaşı birdən durur ayağa, qəməsini qınından çıxardır və acıqlı, ucadan Baxşıya deyir). Adə, erməni, tez kəmənçəni yığışdır, itil get burdan! Yoxsa atanın goru haqqı, bu yoldaşlarımın başına and olsun, bu qəməynən bu saat səni də öldürərəm, özümü də öldürərəm! (Çığırır). Çıx get!"

**(Mirzə Cəlil, "Kamança")**

**Vaxtilə Əbdülrəhman Vəzirov hansısa çıxışında "Ay camaat, gözünüz aydın, ermənilər geri qayıdır" demişdi, bunun üstündə yazığı hoydu-hoyduya götürdülər. İndi isə ermənilərin Bakıya qayıdışı dövlət səviyyəsində bayram edilir. O zaman bu millət 25 ildir nəyin davasını eləyir? Ümumiyyətlə, bizim istədiyimiz nədir?**

İkiüzlülük cəmiyyətin canına hopub. Örnək üçün, mən bir erməni jurnalistini Bakıya dəvət eləsəm hurrey-patriotlar yaxalarını cırarlar. Amma iqtidar erməni QHT nümayəndəsini ailəvi dəvət edib sığınacaq verir, bunu alqışlayırlar. Düzgün anlaşılsın, mən həmin erməniyə sığınacaq verilməsinin qəti əleyhinə deyiləm, aman diləyən, dara düşən hər kəsə millətindən asılı olmayaraq yardım olunmalıdır. Amma prinsip də olmalıdır. Riyakarlıq lazım deyil.

Bu zaman absurd və əslində rejimin mahiyyətini açan "əsaslandırma" da aparırlar: "Xalqın, ayrı-ayrı fərdlər münasibət qurması hakimiyyətin, dövlətin münasibətlərindən fərqlidir". Əgər hakimiyyəti və dövləti xalq qurursa, dövlət mifik-xəyali qurum yox, canlı insanların yaratdığı sistemdirsə, nə üçün bu adamlar da ünsiyyətdə olmasın? Deməli, bu hakimiyyət və dövlətin xalqa dəxli olmadığını etiraf edirlər. Necə ola bilər ki, "seçilmiş" insanlar danışıq aparsın, amma o insanları "seçənlər" danışa bilməsin? Leyla Yunusu, Rauf Mirqədirovu hansısa erməni QHT-si ilə görüşməkdə suçlayan hakimiyyət erməni QHT-sinə Bakıda qucaq açanda nədən mələk olur?

Bir dəfə musiqiçi dostumuz Araz bəy sosial şəbəkədə unudulmaz cümlə yazmışdı: "AzTV Ermənistan müxalifətinin televiziyasıdır". Doğrudan da, hazırda nəinki AzTV-ni, bizim bütün telekanalizasiyaları və o cümlədən qəzetləri açanda Ermənistan hakimiyyəti əleyhinə çoxlu materiallar görmək olar. Eyni hal Ermənistanda da yaşanır, sadəcə, tərsinə. Ordakı KİV-lər özlərini Azərbaycan müxalifətinin tribunası kimi aparırlar. Karikatur durumdur, hər iki toplumun ağlı olsa bu halına gülər və çoxdan vəziyyəti, ağıldan bəla gop-olitiklərimiz demiş, status-kvo-nu dəyişərdi. Amma ağıl hardadır... Əsas odur ağzın köpüklənə-köpüklənə qışqırasan, kasıbların uşaqlarını qırğına verəsən.

Erməni müxalifətçi hesab edək ilk qaranquşdur, köçün davamı gəlsin. Mən bu yaxında "Axırda Azərbaycanın Ermənistandan başqa dostu qalmayacaq" cümləsini zarafata yazmamışdım ki? Qərblə düşmən oluruqsa, Rusiya ilə qardaşlıq artırsa, bunun davamı ermənilərlə dostluqdur. Axı yapistlər həmişə erməniləri "forpost-zad" adlandırır. Əgər ermənilər Rusiyanın oyuncağıdırsa, biz "qaçqınlara it kimi baxan" (Oqtay Əsədov) Avropanı rədd edib Rusiya ilə oynaqlamağın tempini artırdıqsa, düşmənlə dostluq qaçılmazdır. Elementar məntiq deyir ki, dostumun dostu düşmən ola bilməz. Üstəlik, oyuncaq qutusu elə yekədir ki, bunun içinə türklü dovşan da yerləşər, çılpaq donuz balası fiquru da. Kubik doldur, rezin ördək at, oyuncaq tüfəng, maşın, şar - nə istəsən bu qutuda yer tapılar. Nahaq yerə "dünyanın altıda biri" demirlər...

Bir "müqəddəs yer boş qalmır" sözü də var. Azərbaycan QHT-lərini məhv edib, hüquq müdafiəçilərini zindana doldurandan sonra Bakıda QHT fəaliyyəti ilə kimsə məşğul olmalı deyildimi? Bu mənada, Bakıdan sığınacaq alan erməni QHT-çi Vaan Martirosyan bizə çox lazımdır. Yaxşı olardı Vaan müəllim qarşıdan gələn deputatxana seçkilərini də monitorinq eləsin, onsuz ATƏT-zad müşahidə etməyəcək.

**Martirosyan bir az aktiv olsa təzə Xalq Cəbhələrindən birini qayırıb ona vermək də mümkündür. Adı EXCP olar - Erməni Xalq Cəbhəsi Partiyası. Biz beləyik, bəs necə. "İqtsadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".**

# Qərbin təzyiqləri siyasi məhbusların azadlığa buraxılmalarını ləngidirmi?

**Son günlər Qərbin Azərbaycan hakimiyyətinə təzyiqləri artıb. Əvvəlcə Avropa Parlamentinin məlum qətnaməsi, ardınca isə ATƏT-in noyabrın 1-də keçiriləcək parlament seçkilərinə müşahidə göndərməkdən imtina etməsi, əvvəllər də soyuq olan Azərbaycan-Qərb münasibətlərini daha da kəskinləşdirdi.**

Hazırda rəsmi Bakı ilə Avropa arasında söz savaşı gedir. Bəzi ekspertlər hesab edirlər ki, münasibətlərin bu şəkildə davam etməsi ilk növbədə, hazırda həbsxanada olan siyasi məhbuslarımızın azadlığa çıxmasına ciddi əngəl törədəcək. Çünki xarici təşkilatların Azərbaycan əleyhinə olan bəyanatlarının, xüsusilə, Avropa Parlamentinin qətnaməsinin əsas məğzini siyasi məhbusların azadlığa buraxılması təşkil edir. Təcrübədən çıxış edərək qeyd etmək olar ki, Azərbaycan hakimiyyəti indiyə qədər Qərbin tələblərini yerinə yetirmək əvəzinə, daim direniş göstərib. Son günlərdə də Qərbin ölkəmizə qarşı göstərdiyi münasibətə iqtidarın sərgilədiyi mövqe hər kəsə aydındır. Rəsmi Bakı sentyabrın 14-də keçirdiyi parlamentin növbədənkənar sessiyasında Avropaya "müharibə" elan etdi. Bütün bunların fonunda bir sual meydana çıxır:

*Qərbin təzyiqləri Azərbaycanda siyasi məhbusların azadlığa çıxmalarını gecikdirdimi?*



**Mirvari Qəhrəmanlı:**
"Əfvin gecikdirilmə səbəblərindən biri də beynəlxalq təşkilatlardan olan təzyiqlərdir"



**Natiq Miri:**
"Bəyanatlar məhbuslar məsələsini ləngidə bilər"

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı** hesab edir ki, əfv sərəncamının verilməməsinə səbəb olan amillərdən biri də, bayramqabağı Azərbaycana qarşı olan beynəlxalq təzyiqləridir: "Əfv yalnız siyasi məhbuslara aid olmur. Əfv fərmanı ilə çoxlu sayda insan azadlığa buraxılır. Gördüyünüz kimi bu il çoxlu sayda ailənin gözü yolda qaldı. Düşünürəm ki, dediyiniz kimi əfvin gecikdirilmə səbəblərindən biri də ,ölkənin əlamətdar günləri qabağı beynəlxalq təşkilatlardan olan təzyiqlərdir. Beynəlxalq təşkilatların siyasi məhbusların müdafiəsi ilə bağlı apardığı mübarizəni qiymətləndirir, onlara təşəkkür edirəm. Ancaq düşünürəm ki, müdafiə strategiyasında müəyyən dəyişiklik etsələr, bu daha müsbət nəticə verə bilər".

**Politoloq Natiq Miri** bildirdi ki, hakimiyyət bu cür situasiyalarda fərqli mövqe sərgiləyir: "Bu illərdə hakimiyyətin psixoloji xarakterini cəmiyyət bilməmiş deyil. İqtidar təzyiqləri qətiyyən xoşlamır. Hesab edilər ki, təzyiqlərdən sonra müəyyən güzəştlərə getsələr, cəmiyyət daxilində mənfi fikir formalaşar. Hakimiyyətin əleyhinə çevriləcəyindən ehtiyatlanırlar. Fikir verirsinizsə, bir təzyiq olan kimi, iqtidar üsyankar formada mövqe bildirir. Xüsusilə, Qərb çevrələrinə. Bu baxımdan deyə biləm ki, bu cür bəyanatlar məhbuslar məsələsini ləngidə bilər. Çünki hakimiyyət istəmir ki, beynəlxalq təzyiqlər altında öz vətəndaşını azad etsin. Dəfələrlə demişəm ki, bunu hakimiyyət Qərbin təzyiqləri yox, cəmiyyətimiz naminə etməlidir. Həbsdəki insanlar kimliyindən asılı olmayaraq, "beşinci kolon" adlandırılsa da, cəmiyyət üçün heç bir təhlükə törətmirlər. Bunlar barədə sadəcə onu demək olar ki, onlar Azərbaycanın Qərbə inteqrasiya xəttini dəstəkləyirlər. Ola bilsin ki, maliyyə məsələsində Qərbdən ciddi dəstək alıblar. Amma demək mümkün deyil ki, Azərbaycanın bütün mənalarda mövqelərini Qərbə satıblar. Azərbaycan Rusiyadan təzyiqlər olanda, geri çəkilməyi özünə eyib bilmir. Amma Qərbdən bir tələb olanda dərhal təzyiq kimi qələmə verilir. Bütün bunlar əfv və bu kimi proseslərə ciddi əngəl törədir".

❑ **Cavanşir ABBASLI**

# "ABŞ-da bəzi dairələrin Azərbaycana qarşı fəaliyyəti münasibətlərə uyğun deyil"

## Elmar Məmmədyarov ABŞ müdafiə nazirinin köməkçisinin müavinini qəbul edib

**Xarici işlər naziri Elmar Məmmədyarov ABŞ müdafiə nazirinin Rusiya, Ukrayna və Avrasiya məsələləri üzrə köməkçisinin müavini, xanım Evelin Farkasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, E. Farkas Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıb.

O, ABŞ-ın terrorizmə qarşı mübarizə, enerji təhlükəsizliyi və sülhməramlı əməliyyatlar üzrə strateji maraqlarının Azərbaycanın maraqları ilə üst-üstə düşdüyünü və qeyd olunan sahələrdə iki ölkənin əməkdaşlığının təqdirəlayiq olduğunu bildirib.





Əfqanıstan əməliyyatının həyata keçirilməsi üçün Azərbaycanın yaratdığı tranzit imkanlarının və hava məkanından istifadənin ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini deyən E.Farkas bu töhfələrə görə Azərbaycana təşəkkürünü ifadə edib.

Öz növbəsində, E.Məmmədyarov terrorizmə qarşı mübarizədə Azərbaycanın beynəlxalq ictimaiyyətin səylərini yaxından dəstəklədiyini nəzərə çatdırıb. Azərbaycanın ikitərəfli və çoxtərəfli əsasda Əfqanıstanda sülh və sabitliyin bərqərar olmasına yardım etdiyini və ölkəmizin sülhməramlı qüvvələrinin Əfqanıstanda uğurla xidmət etdiklərini nəzərə çatdırıb.

**Azərbaycanla ABŞ arasında əlaqələrə toxunan nazir ABŞ-da bəzi dairələr tərəfindən Azərbaycana aid məsələləri ictimai müzakirə obyektinə çevirməsinin və Azərbaycana qarşı fəaliyyətlərinin iki ölkə arasında strateji xarakter daşıdığı qeyd olunan münasibətlərin ruhuna uyğun olmadığını qeyd edib.** O əlavə edib ki, enerji, terrorizmə qarşı mübarizə, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq siyasi əlaqələri tamamlamalıdır.

Regional məsələlər haqqında danışan E.Məmmədyarov ölkəmizin müstəqilliyi, sabitliyi və təhlükəsizliyinin qorunması və uğurlu inkişafının davam etdirilməsinin qarşıda duran ən mühüm vəzifə olduğunu bildirib.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən ilə Bakı-Tbilisi-Qars dəmiryol xətti, TANAP və TAP layihələri haqqında danışan nazir bu layihələrin regionun nəqliyyat və enerji mənzərəsini dəyişəcəyini vurğulayıb.

**Görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**

# Rusiya Suriyada yeni müharibəyə hazırlaşır

## ABŞ Putinin iranlı generalla yeni antiterror müharibəsi anlaşması əldə etdiyini, Suriyada hərbi gücünü artırdığını iddia edir; bütün tərəflər savaş əzmindədir

**Rusiyanın Suriya ilə bağlı yeni strategiyası üzə çıxıb. Qeyd edək ki, son günlər dünya mediasında Rusiyanın Suriyada İŞİD-ə qarşı genişmiqyaslı antiterror əməliyyatlarına başlayacağı ilə bağlı məlumatlar yayılıb. Müxtəlif mənbələrdən ortaya atılan iddialara görə, Rusiya Suriyada hərbi gücünü artırmaq, savaş bölgəsinə yeni zirehli texnika, tanklar, o cümlədən qırıcı-bombardmançılar göndərir.**



Ancaq hələlik rəsmi Moskva bu iddiaları qismən təsdiqləyir, bir qismini isə təkzib edir. Ancaq o da məlumdur ki, Moskva İŞİD-ə qarşı Qərbə alternativ olaraq daha real, havadan və qurudan mübarizə aparacaq güclü koalisiya yaratmağa çalışır. Bunun üçün Moskva ilk növbədə İraq və Suriyaya yeni silahlar satır, həmçinin bu ölkələrin hərbi gücünü möhkəmləndirməyə çalışır. Rusiyanın Yaxın Şərqdə hərbi qüvvə göndərməsi də istisna olunmur.

**ABŞ-ın "Fox News" telekanalı isə Rusiyanın Suriyada başladacağı yeni antiterror savaşı ilə bağlı xəbər yayıb.** Telekanalın iddiasına görə, Rusiyanın Yaxın Şərqdə yeni antiterror müharibəsi və Suriyaya ordu göndərməsi İranla anlaşmadan sonra ortaya çıxıb. Telekanalın iddiasına görə, Moskva yeni antiterror müharibəsi ilə bağlı İranın bölgədə antiterror müharibəsi üzrə cavabdeh şəxsi, SEPAH-ın xarici əməliyyatlar üzrə "Qüds" briqadasının komandiri General Qasim Süleymani ilə gizli anlaşma əldə olunub.

**Xəbərdə qeyd olunur ki, hazırda Pentaqon Rusiyanın Suriyadakı hərbi qüvvələrini ehtiyatlı şəkildə izləyir.** İzləmələrdən belə məlum olub ki, Rusiyanın Suriyadakı hərbi qüvvələri məhz general Süleymaninin Putinlə görüşündən bir neçə gün sonra artmağa başlayıb. Telekanal iddia edir ki, məhz Süleymani ilə Putin arasında görüşdə Suriyada həyata keçiriləcək birgə antiterror müharibəsi müzakirə olunub. Amerikalı bir kəşfiyyat rəsmisi isə bildirib ki, Rusiya artıq Suriyada sadəcə hərbi məsləhətçi kimi deyil, əksinə Suriyadakı savaşın komandanı kimi çıxış edir. Kəşfiyyat zabiti Rusiyanın Suriyadakı fəaliyyətini Amerikanın Əfqanıstan və İraqa hücumlarına bənzədib və prosesin oxşar getdiyini, hazırda Rusiyanın Suriyaya hərbi qüvvə toplama mərhələsində olduğunu deyib.

Telekanal xatırladır ki, general Qasim Süleymani İran və "altılıq" ölkələri arasında əldə olunmuş nüvə razılaşmasından 10 gün sonra, iyulun 24-də Moskvaya səfər edib. Eyni zaman iddia olunur ki, Q.Süleymani hazırda Suriyada aparılan gizli əməliyyatların əsas rəhbərlərindən biridir. Ancaq nə Rusiya, nə də İran Süleymaninin Moskva səfərini təsdiqləmir.

Yeri gəlmişkən, ötən gün Suriyanın xarici işlər naziri Vəlid Muallim də mətbuata müsahibəsində Rusiyanın Suriyaya ordu göndərməsi ilə bağlı məlumatları təkzib edib. Ancaq Muallim bildirib ki, hazırda buna ehtiyac yoxdur, əgər ehtiyac yaranarsa Dəməşq bunun üçün Moskvaya müraciət edəcək. Lakin eyni zamanda Suriya XİN rəhbəri Rusiyanın Suriyaya terrorla mübarizə üçün silahlar verdiyini etiraf edib.

**Qeyd edək ki, hər nə qədər tərəflər inkar etsələr də, Rusiyanın Suriyada hərbi imkanlarını genişləndirdiyi ilə bağlı məlumatlar artır.** Eyni zamanda digər tərəfdən Moskva özü Yaxın Şərqdə İŞİD terrora qarşı effektiv müharibə üçün yeni koalisiya qurulması danışıqlarını aparır və paralel olaraq İraq və Suriyaya ən son silahları satır. Aydın məsələdir ki, yeni koalisiya formalaşacağı təqdirdə Rusiya Suriyada İŞİD-ə qarşı hava zərbələri və eləcə də quruda xüsusi təyinatlı əməliyyat qüvvələri göndərəcək. Çünki Rusiya İŞİD-i konkret olaraq özünə qarşı təhdid olaraq görür və bu qruplaşmanın davam edəcəyi təqdirdə qarşıdakı illərdə Şimali Qafqazda peyda olacağını gözləyir. Bu səbəbdən də Moskva İŞİD-in tez bir zamanda məhv edilməsi üçün imkanlarını səfərbər edib. İstisna deyil ki, yayılan xəbərlərdə də qeyd olunduğu kimi tezliklə Suriyada İŞİD-ə qarşı geniş miqyaslı əməliyyatlar başlayacaq. Bu əməliyyatın əsas zərbə gücünü isə Rusiya və İran təşkil edəcək. Qərb ölkələri, o cümlədən Türkiyə Rusiyanın Suriyada başladacağı yeni əməliyyatın bütövlükdə müxalifləri sıradan çıxaracağından narahatdır. Bu səbəbdən də ötən gün Türkiyə mediasında Rusiyanın İŞİD də daxil olmaqla bütövlükdə müxalifləri hədəfə alan yeni əməliyyat başladacağı ilə bağlı xəbərlər yayılıb. ABŞ isə İŞİD-ə qarşı əməliyyatlara ilk dəfə olaraq xüsusi təyinatlılar göndərib.

**Bu da onu göstərir ki, bölgədə yeni müharibənin başlaması ilə bağlı xəbərlər xeyli dərəcədə ciddidir. Bütün tərəflər indi bu mərhələyə hazırlaşır, proseslərdən daha qazanclı, öz maraqlarını qorumaqla çıxmağa çalışır.**

❑ KƏNAN



## Moskvada Rusiya və Türkiyə prezidentlərinin görüşü keçiriləcək

**Sentyabrın 23-də Moskvada Rusiya prezidenti Vladimir Putin, Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan və Fələstin Milli Administrasiyasının başçısı Mahmud Abbasın görüşü olacaq. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.**

"Türkiyə prezidenti Moskvada məscidin açılış mərasimində iştirak edəcək. Həmçinin onun prezident Putinlə görüşü də nəzərdə tutulub. Biz Mahmud Abbasın da mərasimdə iştirakını gözləyirik. Onunla Putin ayrıca danışıqlar aparacaq" -, deyə Kremlin mətbuat xidmətinin rəhbəri qeyd edib.

Qeyd edək ki, sentyabrın 23-də Moskvanın Sülh prospektində yerləşən məscidin açılış mərasimi keçiriləcək. Mərasimə dəvət olunanlar arasında Səudiyyə Ərəbistanı, İordaniya, Fələstin, Qətər, Küveyt, Türkiyə, Qazaxıstan, Azərbaycan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, İran və digər dövlətlərin başçıları var.

## Poroşenko 41 avropalı jurnalistin Ukraynaya girişinə qadağa qoydu

**Ukrayna prezidenti Pyotr Poroşenko ölkəsinə girmək qadağan edilən jurnalist və bloqerlərin siyahısını yeniləyib. Avropa.info xəbər verir ki, Proşenko bundan başqa siyahıdan 6 Qərb jurnalistinin adını çıxarıb. Onlar arasından BBC-nin 3, İspaniyanın 2, "Frankfurter Allgemeine" alman nəşrinin 1 jurnalisti var. Həmin jurnalsitlərə qoyulan qadağanın götürülməsi haqda Poroşenko özü göstəriş verib.**

Ukrayna prezidenti eyni zamanda, fantastik sayda jurnalistə ölkəsinə girmək qadağası haqda sərəncam da imzalayıb.

Sanksiyalar siyahısında Avropa ölkələrdən 34 jurnalist və 7 bloqerin adı daxil edilib.

Qeyd edək ki, Ukrayna prezidentinin bu qərarına Qərb dairələrinin səssiz qalması maraq doğurub. Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə bir jurnalistin ölkəyə girişinə qadağa qoyulduğu zaman çoxsaylı bəyanatlar verən Qərbin, Poroşenkonun addımına səssiz qalması ikili standartların ifadəsi deyilmi?

## Bakıda əziz tutulan erməni qonaq



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Daha bir erməni ailəsi nicat tapmaq üçün Azərbaycana pənah gətirdi. Artıq belələrinin sayı yavaş-yavaş itir. Bundan qabaq Dağlıq Qarabağ sakini olan Andranik Qriqoryan əynindəki işğalçı mundirə tüpürərək və ağ bayraq qaldıraraq biz tərəfə keçmişdi. Yanılmırıqsa, hələ də Azərbaycanda şad-xürrəm yaşayır.**

Ondan qabaq isə Gevorkyanlar ailəsi Naxçıvan vasitəsilə ölkəmizə adlamışdı. 1-2 il Bakıda yaşadıqdan sonra geri qayıtdılar. Amma peşman oldular, çünki qayıdan kimi istintaqa cəlb edildilər.

Doğrudur, bizdən də bir ailə - həyat yoldaşı erməni kökənli olan Cavid Orucov ötən il öz ailəsi ilə Ermənistana sığınmışdı (az sonra üçüncü ölkəyə getdilər). Ancaq bu, hələlik yeganə faktdır və ümid edək ki, yeganə olaraq da qalacaq...

Nə demək olar son insidentlə - Vaan Martirosyan və ailəsinin gəlişi ilə bağlı? İlk öncə onu ki, azərbaycanlılar dinindən, irqindən və milliyyətindən asılı olmayaraq qonağa həmişə sayğılı yanaşıb, çünki onu Allah qonağı kimi qəbul ediblər. Fəqət, erməni qonaqların bir əlavə statusu da var ki, o status həm onların özlərinə, həm də Azərbaycan dövlətinə bəzi prinsipial üstünlüklər yaradır.

Pənah gətirən ermənilər üçün üstünlük budur ki, onlar dərhal BMT-nin, "Qırmızı Xaç"ın xüsusi nümayəndəsinin nəzarəti, Azərbaycan dövlətinin isə təhlükəsizlik çətiri altına düşür, üçüncü ölkəyə könüllü getmək şansı qazanırlar.

Azərbaycan üçün üstünlük odur ki, biz bir dövlət, millət olaraq sivil dünyada müsbət rakursda, erməni dövləti və toplumundan daha sivil, daha mədəni obrazda tanınmış oluruq.

Bu məqam sözsüz ki, illərdir Qarabağ problemi kimi ağır yükün altında olan Azərbaycanın beynəlxalq nüfuzuna olduqca qiymətli siyasi xalların əlavə edilməsi, problem ətrafında xeyrimizə daha əlverişli ab-havanın yaranması deməkdir. Nə yazıq ki, məsələnin bu cəhəti Azərbaycanın hakim dairələrində lazımınca dəyərləndirilmir.

Məsələ də bundadır. İndi təsəvvür edin ki, Azərbaycan avtoritar rejimli yox, Gürcüstan kimi demokratik, üstəgəl, rifah içində olan dövlətdir və burada təkcə qonaq ermənilərin deyil, yerli vətəndaşların da təməl haqları ciddi şəkildə qorunur.

Təsəvvür etdinizmi? O zaman görün, nə qədər mülki və hərbçi erməni, o cümədən Dağlıq Qarabağdakı erməni millətindən olan vətəndaşlarımız biz tərəfə keçmək yanğısı ilə yaşayacaq. O zaman Qarabağ məsələsinin ədalətli həlli də tezləşəcək, nədən ki, kimin haqlı olduğuna şəkk edənlər minimuma enəcək.

Bu mənada Avropa Parlamentinin Azərbaycana dair son qətnaməsinin süngü ucunda qarşılanması anlaşılmır. Bu nüfuzlu təşkilat nə istəyir ki - sadəcə olaraq ölkəmizdə elementar insan haqlarına riayət edilməsini, günahsız tutulmuş siyasi məhbusların azadlığa buraxılmasını!

Yəni Avroparlament faktiki surətdə ölkəmizin adının pisliyə çəkilməməsini istəyir, onun beynəlxalq imicinin qeydinə qalır, bu imicin yaxşılaşmasını arzulayır, deməli, həm də Azərbaycana yaxşı mənada erməni axınının olmasını istəyir, Ermənistanın isə ölkəmizlə müqayisədə rüsvay olmasına çalışır.

**Azdır? Bizə, Qarabağa bundan böyük yaxşılıq?**

**Elədirsə, niyə də Bakıda artıq neçənci dəfədir yüksək səviyyədə qarşılanan (belə də lazımdır, çünki milli maraqlarımız, Qarabağın taleyi tələb edir) və yerləşdirilən ermənilərə sayğının, mərhəmətin heç olmasa, yarısı özümüzkülərə - heç bir ağır cinayət törətməmiş vicdan və siyasi dustaqlara da göstərilməsin?!**

YENİ MÜSAVAT
N 208 (6238) 19 sentyabr 2015



# NATO-nun bölgəyə gəlişi labüddür

Azər RƏŞİDOĞLU

**Rusiyanın bir məqsədi var - sülhməramlılar adı ilə Dağlıq Qarabağa qoşun yeritmək. Əslində, Rusiya çoxdan planlaşdırdığı siyasəti həyata keçirir. Təsadüfi deyil ki, Kreml MDB ölkələrini Qərblə bütün əlaqələrini kəsməyə sövq edir.**

Amma Rusiya növbəti dəfə səhv edir. Şimal ölkəsi bununla öz ətrafındakı siyasi həlqəni bir az da daraldacaq. Təcrid prosesi labüd olacaq. Getdikcə aydınlaşır ki, Rusiya artıq Qafqazın uzaqlaşan keçmişidir. Ola bilsin, Rusiyanın Qarabağa qoşun yeritmək arzusu onun üçün sonuncu səhv olacaq. Vaxtilə keçmiş Yuqoslaviyada da Rusiya çox fəallıq göstərmişdi. Nəticəsi nə oldu?

MDB məkanında olan separatçı rejimlər Rusiyanın əlində bəzi ölkələrin xarici siyasətinə təsir etmək, müstəqilliyini məhdudlaşdırmaq üçün vasitədir. Bu, uzun müddətli asılılıq deməkdir. Baxmayaraq ki, bəzi rejimlər bunu əbədi dostluq kimi qələmə verirlər. Rusiyanın isə dostları yoxdur, onun əbədi maraqları var. Bu maraqlar bütün vasitələrlə Cənubi Qafqazda qalmağı diqtə edir, çünki Cənubi Qafqaz Yaxın Şərqə çıxışdır, bura Şimali Qafqazın astanasıdır.

Cənubi Qafqazda da Baltikyanı respublikalarda olduğu kimi, birlik və həmrəylik olsaydı, Rusiyanın bu ərazini tərk etməsi asanlaşardı. Amma belə birlik yoxdur, Rusiyanın çoxəsrlik maraqları bu bölgəni ziddiyyətli hissələrə parçalayıb.

İndi hər şey geosiyasi templərdən asılıdır. Hər şey dünya birliyinin Rusiyaya ardıcıl təzyiqindən asılı olacaq. Bu təzyiqlər isə özünü hiss etdirməkdədir.

Hətta münaqişəyə cəlb olunmayan ölkələr belə etiraf etdilər ki, bölgədəki sabitlik çox kövrəkdir. Elə dondurulmuş münaqişələrin də donu hər an açıla bilər. Bu isə Rusiyanın sabitlik potensialını heçə endirir. Bölgənin yeni təhlükəsizlik arxitekturasına ehtiyacı var. Nə MDB, nə Kollektiv Təhlükəsizlik Müqaviləsi bunu təmin etmək iqtidarında deyil. Hər şey daha müasir əsaslarla qurulmalıdır. Bunun üçün isə bölgəyə NATO-nun gəlişi labüddür. NATO təkcə bölgədə geosiyasi nizam-intizam yaratmaq üçün lazım deyil. O, həm də üzv qəbul etdiyi ölkələrin daxili siyasi həyatına bir qayda gətirərdi, onları demokratiya istiqamətinə yönəldərdi. Bəzi ölkələrin NATO-ya qarşı ehtiyatlı münasibətinin əsasında məhz sonuncu amil dayanır. Özü demokratik olmayan ölkələr üçün Rusiya daha cəlbedicidir. MDB getdikcə qorxunc strukturu xatırladır - saxta seçkilər Rusiyanın mövqeyini gücləndirmək üçündür.

Tarixi təcrübə göstərir ki, dünyada heç bir ideya azadlıqla rəqabət apara bilmir, gec-tez azadlığa məğlub olur. MDB respublikaları da hələ də tam azad deyillər. Amma onların da azad olmasına çox qalmayıb. O gün gələcək. Yeni dünya nizamı, qloballaşma, demokratikləşmə sərhədlərini genişləndirməkdədir.

Ola bilsin, Rusiyanın bu səhvi onun üçün sonuncu olacaq. Vaxtilə keçmiş Yuqoslaviyada da Rusiya çox fəallıq göstərmişdi. Nəticəsi nə oldu? Bir vaxtlar Rusiya Şərqi Avropa ölkələrinin də NATO-ya üzv olmasının qarşısını almağa çalışırdı. Nəticəsi nə oldu?

**Ukraynada inqilab baş verəndə Kremlin ekspertlərindən biri Qleb Pavlovski belə bir söz demişdi: "O şey ki, baş verməlidir, onun qarşısını almağa dəyməz!". Bəlkə bu dəfə də labüd proseslərin qarşısını almağa dəyməz? Rusiya labüd məhvə gedir. Şimal qonşusunun imperiyaçı ambisiyaları onu xilas edə bilməz...**

# Dollar bahalaşmayacaq - Federal Rezerv Bankı uçot dərəcəsini dəyişdirmədi...

## Vüqar Bayramov: "Milli valyutamızın məzənnəsi üçün FED-in bu qərarını məqbul hesab etmək olar"

**ABŞ-ın Federal Rezerv Bankı (FED) uçot dərəcəsinin dəyişdirilməməsi qərarına gəlib. 2006-cı ildən bəri uçot dərəcəsinə toxunmayan amerikalı maliyyəçilər "status-kvonu" saxlamağı əlverişli sayıblar. Bununla belə, FED gələn ay keçiriləcək toplantısında uçot dərəcəsinə yenidən baxmasını mümkün sayır.**

**Yerli ekspertlər bunu şərh ediblər.** "Analitiklər oktyabrdakı toplantıdan sonra mətbuat konfransının nəzərdə tutulmadığını əsas götürərək FED-in sükutu pozacağını güman etmirlər. Uçot dərəcəsinin dəyişdirilməməsi həm ABŞ-da inflyasiya səviyyəsinin aşağı olması, həm də digər ixracatçı ölkələrdə həyata keçirilən yumşaq məzənnə siyasəti ilə əlaqələndirilir. İki faizə yaxın inflyasiya dərəcəsinə malik olan Birləşmiş Ştatlarda ilin sonunadək bu həddin qorunub saxlanılacağı gözlənilir",- deyə ekspert Vüqar Bayramov bildirib.

Onun sözlərinə görə, bu qərar artıq dünya səhm və valyuta bazarına təsir göstərməkdədir: "Dow Jones indeksində 0,39, S&P indeksində 0,26 faiz eniş qeydə alınsa da, Nasdaq mövqelərini qoruyub saxlaya bilib. Dünən dollar avroya nisbətən yenidən dəyər itirib. Belə ki, bir gündə 1,2 faiz dəyər qazanan Avropa pulu almaq üçün indi 1,14 dollar ödəmək lazım gəlir. Manat da FED-in qərarına reaksiya verib. Valyuta bazarımızda dollar ucuzlaşıb. Manatın dollara nisbətən məzənnəsi bu gün 1,0477-dən 1,0473-dək möhkəmlənib. Bununla yanaşı, rəsmi məzənnədə dünən 1 avro almaq üçün 1,1838 manat ödəmək lazım gəlirdisə, bu gün 1,1935 manatdan keçmək lazım gəlir".



Onun sözlərinə görə, əslində, ABŞ son qərarı ilə dolların dünya bazarına mövqelərinin kəskin möhkəmlənməməsi siyasətini dəstəklədi: "Aydındır ki, dolların məzənnəsinin kəskin möhkəmlənməsi iqtisadi baxımdan Amerikanın maraqlarına uyğun deyil. Baxmayaraq, ABŞ-da işsizlik aşağı rəqəmlə ifadə edilir, iqtisadi artım tempini qoruyub saxlayıb. Dolların kəskin möhkəmlənməsi Amerikanın ixracatına mənfi təsir göstərir. Xüsusilə əsas rəqibi olan Çin yuanı ucuzlaşdırıb və ixrac imkanlarını genişləndirib. O baxımdan FED sıfra yaxın faiz dərəcəsini qoruyub saxladı. Bununla yanaşı, ABŞ pulunun dünya bazarına mövqelərinə təsir göstərən bu qərar təbii ki, heç də dolların yaxın zamanlarda kəskin ucuzlaşması anlamına gəlməməlidir".

**V.Bayramovun sözlərinə görə, milli valyutamızın məzənnəsi üçün FED-in bu qərarını məqbul hesab etmək olar. Belə ki, bu addım qlobal valyuta bazarındakı dəyişikliklərin manata təzyiqini azaldacaq:** "Qeyd edək ki, manatın cari məzənnəsi müəyyənləşdirilən zaman neftin dünya bazar qiyməti deyil, məhz dollar avro münasibəti nəzərə alınır. Bu ilin fevral ayından Mərkəzi Bank 2 valyutalı səbətdən istifadə edir və artıq avro dollar ilə yanaşı dayanır. Yəni, dünya valyuta bazarında məzənnə dəyişikliyi baş verirsə artıq manatın dollar kursu sabit qalmır, o da dəyişir. Mərkəzi Bankın valyuta səbətində dolların payı yenə də çoxdur. Bu isə o deməkdir ki, dolların avroya məzənnə dəyişən zaman ABŞ pulu avropalıların puluna nisbətən buna daha az reaksiya verir. Buna görə də, FED-in son qərarı dolların manata təzyiqini azaltmaqla yanaşı gələcəkdə dünya bazarında avronun möhkəmlənəcəyi halda manatın da dollara nisbətən güclənməsinə gətirib çıxaracaq. Beləliklə, ABŞ "möhkəm dollar" mərhələsinə qədəm qoymadı. Qlobal valyuta bazarının dərhal reaksiya verdiyi bu qərara manat da yerli bazarda dolları "cüzi sıxışdırmaqla" münasibət göstərdi".

❑ **Röya**

# Ölkə bankları böhranda

## Ekspertlər ilin sonuna qədər 20-yə yaxın bankın bağlanacağını proqnozlaşdırırlar...

**Ölkədə fəaliyyət göstərən kommersiya banklarının bəzisinin fəaliyyətində problemlər yaranıb. Əsas problemlərdən biri kimi isə maliyyə çatışmazlığı göstərilir. İstehlak kreditlərinin həcminin getdikcə azalması, əhalinin əmanət yerləşdirməyə maraq göstərməməsi isə vəziyyəti daha da mürəkkəbləşdirir. Bu səbəbdən də bankların bəzisi xidmət şəbəkəsini mümkün qədər kiçiltmək və ixtisarlar aparmaq məcburiyyətindədir.**

Xidmət şəbəkəsini yenidən komlekləşdirməyə qərar vermiş banklardan biri də "Bank Respublika"dır. Məlumatlı mənbə iddia edir ki, dəyişikliklərə artıq başlanılıb və bu proses hələ ki qərb bölgəsini əhatə edir. Məlumata görə, "Bank Respublika"nın Goranboy şöbəsi artıq fəaliyyətini dayandırıb. Bu filialın əhatə etdiyi dairənin Gəncə filialına verildiyini deyən mənbə, hazırda təhvil-təslim işlərinin aparıldığını da bildirib: "Orada heç bir əməliyyat aparılmır. Filialı Gəncəyə birləşdirirlər. İşçi heyətinin taleyi barədə isə heç bir məlumat yoxdur".

"Azərfaks"ın əməkdaşı məsələ ilə bağlı "Bank Respublika"nın baş ofisi ilə əlaqə saxlayıb. **Bankın ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi Ramil Bayramov** Goranboy filialının hazırda öz işini davam etdirdiyini deyib.

Lakin bankın Goranboy filialının müdiri Toğrul Sadıqov məlumatı təsdiqləyib. O, saytın əməkdaşı ilə söhbətində Goranboy filialının Gəncə filialına birləşdiriləyini deyib. T.Sadıqov işçi heyəti ilə bağlı hansı qərar verildiyinə dair suallı da cavabsız qoymayıb. Onun sözlərinə görə, filialların birləşdirildiyi barədə işçilərə məlumat verilib: "Çalışacağıq ki, onları digər filiallarda işlə təmin edək".

**Ekspert Samir Əliyev isə məsələ ilə bağlı bildirib ki, bəzi bankların belə bir addıma gedəcəkləri əvvəldən məlum idi:** "Gözləntilərimiz özünü doğruldur. Sentyabr-oktyabr aylarında bank sektorunda ixtisarı proqnozlaşdırmışdıq. Yəqin ki, bu, bağlanacaq sonuncu filial olmayacaq. Digər banklarda da filialların bağlanmasını və ya ixtisarları müşahidə edəcəyik. "Bank Respublika" prosesləre həmişə çevik reaksiya verən bankdır. Bank sektorunda baş verəcək narahatlıqları bu bankın davranışından müşahidə etmək olar. Əgər onlar filial birləşməsinə gediblərsə, deməli, digər banklarda vəziyyət daha pisdir və onlar da prosesə qoşulacaq".

**Qeyd edək ki, ekspertlər ilin sonunadək bir sıra bankların bağlanacağını proqnozlaşdırırlar. Bildirilir ki, ilin sonuna qədər 15-20 bank bağlana bilər. Ekspertlərin fikrincə, devalvasiyanın zərər vurduğu əsas sahə bank sektorudur. Bu səbəbdən bankların maliyyə vəziyyəti pisləşib. İxtisarlar, filialların bağlanması istisna edilmir. Bunun qarşısını neftin bahalaşması ala bilər.**

❑ **Röya**

YENİ MÜSAVAT
N 208 (6236) 19 sentyabr 2015

# Hakimiyyət oliqarxiyanın siyasətə təsirini azaltmağa çalışır

## Azər Rəşidoğlu: "Azərbaycanda biznes və onun sahibləri ya nəzarət altındadırlar, ya da ki, elə iqtidarın tərkib hissəsidirlər"

**Azərbaycan hakimiyyəti oliqarxiyanın proseslərə təsirini zəiflətməyə çalışır. Son illərdə bir sıra oliqarx-nazirlərin səlahiyyətlərinin əllərindən alınması, "ASAN" xidmətin yaradılmasını müşahidəçilər oliqarxiyanın zəiflədilməsi prosesi kimi yozurlar. Xüsusən də son aylarda ölkə başçısının birbaşa iri məmurları hədəfə alan çıxışları göstərir ki, hakimiyyət qarşıdakı dövrdə iri məmur oliqarxiyası sistemindən imtina edəcək.**

Bu versiyanı gücləndirən daha bir məqam isə deputat-məmurların mandat və ya vəzifə arasında seçimə məcbur edilməsidir. Maraqlıdır ki, bu il seçkilərdə bir sıra nazir övladlarının namizədliyi irəli sürülməyəcək. Hətta məlumatlara görə, bəzi nazir-oliqarxların belə təşəbbüsü olsa da, siyasi rəhbərlikdən "yox" cavabı alıblar. Həmçinin eyni cavab oliqarx məmurların deputatlığa namizədlərinə də verilib. Hakimiyyət oliqarxların parlamentdə deputatlarının olmasına bu dəfə icazə verməmək, parlamenti daha çox bir mərkəzə bağlı etmək niyyətindədir.

**Siyasi şərhçi Azər Rəşidoğlu** deyir ki, Azərbaycanda müəyyən siyasi layihələrdə məhz oliqarxiyanın adı keçdiyi üçün hakimiyyət artıq oliqarxiyaya qarşı ehtiyatlı davranır: "Azərbaycanda hazırda situasiya o dərəcədə qeyri-müəyyəndir ki, siyasi elita təhlükənin haradan gələcəyini hesablamaqda çətinlik çəkir. Siyasi kataklizmlər təhlükəsi hər an gözlənilir. Onu da nəzərə alsaq ki, kataklizmlər özü də birdən-birə baş vermir, vəziyyətin heç də proqnozlaşdırıla bilməyəcəyini deyə bilərik. Daha bir önəmli fakta diqqət yetirək. Qərb anlayır ki, Azərbaycanda oliqarxlar müxalifətin tərəfinə keçməsə bu ölkədə dəyişiklik barədə düşüncələr reallaşa bilməyəcək".



**Post-sovet respublikalarında inqilabların əsas təkanverici qüvvəsinin oliqarxiya olduğunu xatırladan ekspertin fikrincə, Qərb oliqarxiyanı siyasi proseslərə qatmağa çalışır:** "Ukraynadakı son proseslər milyonlarla maliyyə hesabına gerçəkləşdirilə bildi. Böyük proseslər üçün maliyyə əsas şərtdir. Məhz oliqarxları müxalifətə keçməyə sövq edəndən sonra Qərb Ukrayna müxalifətini silahlanmaq, milli qvardiya yaratmaq, klassik inqilaba hazırlaşmaq barədə bəyanatlar verməyə sövq etdi. Bu gün hiss olunur ki, Qərb Azərbaycandakı bir çox siyasi qüvvələri siyasi həyatdan silmək, onların yerinə oliqarx və gəncləri gətirmək istəyir. Klassik müxalifət bu proseslərdə yuxarıda adı çəkilən təbəqə ilə əməkdaşlıqla özünü qoruya bilər. Ukraynadakı son proseslərin öyrətdiyi dərslərdən biri də məhz budur. Onu da nəzərə almaq lazımdır ki, hakim elitanın iqtisadiyyatı tam nəzarətə götürməsi insanların kəskin etirazına səbəb olur, pulların bölünməsində digər qruplar kənarda saxlanılır. Ən müxtəlif qrupların maraqlarının get-gedə sıradan çıxarılması savaşların miqyasını böyüdür".

**Bu təhlükəni hakimiyyətin də hiss etdiyini qeyd edən ekspertin fikrincə, indi oliqarxiya Azərbaycan hakimiyyəti üçün də riskə çevrilib:** "Prosesləri iqtidar ideoloqları da təhlil edirlər və odur ki, oliqarxiyanı sıradan çıxartmağa çalışırlar. Oliqarxiyanın siyasi hakimiyyətə gəlişi də cəmiyyətə yaxşı perspektiv vəd etmir. Oliqarxların əsas ideyası pul qazanmaqdır. Əgər oliqarx siyasi hakimiyyətə can atırsa, demək hakimiyyət rıçaqlarından faydalanmaqla daha çox maliyyə əldə etmək, yeni bazarlar qazanmaq və biznes imperiyalarının sərhədlərini genişləndirmək haqqında düşünür. Bu, praktikada dəfələrlə təsdiq olunmuş məsələdir. 2006-ci ildən başlayaraq oliqarxiyanın Azərbaycanın siyasi sisteminə sürətli inteqrasiyası da bunu bir daha sübut edir. 2006-cı ildə bir neçə oliqarx nazir postuna təyin edildi və bununla da nazir-oliqarxların əhatə dairəsi genişləndirildi. Nəticədə korrupsiya və rüşvətin həcmi, miqyası müqayisə olunmaz dərəcədə artdı, qiymətlər dəfələrlə bahalaşdı, bürokratik aparat daha da möhkəmləndi".

**Azər Rəşidoğlu deyir ki, inkişaf etmiş ölkələrdə oliqarxiyanı imkan daxilində siyasi hakimiyyətdən uzaq saxlamağa çalışırlar. Lakin ekspertin fikrincə, hələlik Azərbaycan hakimiyyəti oliqarxiyanı nəzarəti altında tuta bilir:** "Ən azı oliqarxiyanın siyasi qərarlara birbaşa təsir etməsinə imkan vermirlər. Oliqarxlar hakimiyyətə xeyriyyəçilik etmək üçün yox, pul qazanmaq və biznesini böyütməyə gəlir. Lakin Azərbaycanda biznes və bu biznesin sahibləri ya nəzarət altındadırlar, ya da ki, elə iqtidarın tərkib hissəsidirlər. Cızığından çıxan oliqarx dərhal maliyyə rıçaqlarından məhrum edilir. Son günlər müşahidə etdiyimiz proseslər də bunu deməyə əsas verir. Nəqliyyat naziri Ziya Məmmədovun mövqelərinin zəiflədilməsi də deyilənlərə sübutdur".

❑ **Kənan Rövşənoğlu**

# Bankların növbəti fırıldağı - faiz dərəcələri...

## Əkrəm Həsənov: "Bu, tamamilə yolverilməz haldır və müştərilər həmin təkliflə razılaşmamalıdır"

**"Məlum olduğu kimi, son vaxtlar bəzi banklar müştərilərin dollar kreditlərini manata çevirməyə başlayıblar. Lakin təəssüf ki, bu düzgün addımı əvəzsiz etmirlər. Əvəzində kredit üzrə faiz dərəcəsini artırır, yaxud müştəridən komisyon haqq tuturlar. Bu, tamamilə yolverilməz haldır və müştərilər bankların bu təklifinə razılaşmamalıdır",- deyə o, qeyd edib.**



**"Kreditin valyutası dəyişəndə, faiz dərəcəsinin artırılması yolverilməzdir". Hüquqşünas Əkrəm Həsənov bankların növbəti fırıldağı barədə danışarkən belə deyib.**

Ekspertin sözlərinə görə, bankların bu addımı "Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Prezidentin 22 dekabr 2014-cü il tarixli Fərmanının 11-ci bəndinə ziddir. "Orada deyilir: "Azərbaycan Respublikasının Mərkəzi Bankı kommersiya banklarının kreditləri üzrə faiz dərəcələrinin aşağı salınması, həmin dərəcələrlə Azərbaycan Respublikası Mərkəzi Bankının uçot dərəcəsi arasında fərqin azaldılması istiqamətində əməli tədbirlər görsün və görülən işlər barədə altı aydan bir Azərbaycan Respublikasının Prezidentinə məlumat versin". Yəni prezident Mərkəzi Banka tapşırıb ki, faiz dərəcələrinin aşağı salınmasını təmin etsin. Banklar faiz dərəcələrini azaltmaq əvəzinə niyə artırırlar? Mərkəzi Bank niyə buna göz yumur və ölkə başçısının tapşırığının icrasını təmin etmir?".

**Ə.Həsənov həmçinin bildirib ki, bankların bu əməli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 439.1, 439.2 və 439.7-ci maddələrinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılması və həmin maddələrin bəzi müddəalarının şərh edilməsinə dair" Konstitusiya Məhkəməsinin 14 may 2015-ci il tarixli Qərarının 6-cı bəndinə ziddir: "Orada deyilir:** "Əhalinin maraqlarını nəzərə alaraq, xarici valyutada verilmiş kreditlər üzrə kredit müddətinin uzadılması, faiz dərəcələrinin aşağı salınması və digər güzəştli şərtlərin tətbiqi üzrə tədbirlərin bankların maliyyə imkanlarından asılı olaraq həyata keçirilməsi məqsədəmüvafiq hesab edilsin". Başqa sözlə, məhkəmə banklara dollar kreditləri üzrə faiz dərəcələrini aşağı salmaq göstərişini verib. Banklar niyə ölkənin ən yüksək məhkəmə instansiyasının qərarını icra etmir? Qeyd edilənlərə əsasən müştərilər kreditin valyutasının dəyişdirilməsi zamanı banka hər hansı əlavə ödənişin edilməsinə razılaşmamalı, əksinə faiz dərəcəsinin daha da aşağı salınmasını tələb etməlidirlər. Valyutanın dəyişməsi bankların lütfü deyil, müştərinin haqqıdır.

Belə ki, Mülki Məcəllənin 422-ci maddəsinə əsasən tərəflərin müqavilə bağlayarkən əsas götürdükləri şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi onun dəyişdirilməsinə və ya ləğv edilməsinə əsas verir. Şəraitin dəyişməsi o halda əhəmiyyətli sayılır ki, əgər tərəflər bu dəyişməni ağlabatan şəkildə əvvəlcədən görə bilsəydilər, müqavihəni əhəmiyyətli dərəcədə fərqlənən şərtlərlə bağlayar və ya ümumiyyətlə, bağlamazdılar. Tərəflərin müqavilənin əsasında durmuş təsəvvürlərinin yanlış çıxması şəraitin dəyişməsinə bərabər tutulur. Təbii ki, manatın kəskin devalvasiyası şəraitin əhəmiyyətli dərəcədə dəyişməsidir".

❑ **RÖYa**

# Fazil Mustafadan "Həccdə naib olayı"na reaksiya

## "Dində belə bir qayda olduğunu bilmirəm"

**Yeni Azərbaycan Partiyasının namizədliyindən imtina etdiyi deyilən deputat Qalib Salahzadə Həcc ziyarətindən tez qayıtmasının səbəblərini açıqlayıb. Q.Salahzadə bildirib ki, Həcc ziyarətini yarımçıq qoymayıb. Dini ayinləri davam etmək üçün, yerinə naib qoyub: "Həcc ziyarətini yarımçıq qoymamışam. Ziyarətin əsas əməllərini yerinə yetirmişəm. Özümə orda naib tutmuşam".("qafqazinfo").**



Bəs dində bu necədir? Həcc ziyarətini yarımçıq qoyub gələrkən naibin davam etməsi məqbuldurmu?

Məsələ ilə bağlı musavat.com-a Həcc ziyarətində olmuş, siyasi fikirləri ilə yanaşı, dini açıqlamaları ilə də tanınan **deputat Fazil Mustafa** açıqlama verib. O bildirib ki, belə bir halın şahidi olmayıb: Dinin qaydaları var. Orada heç bir artıq-əskiklik yoxdur. O qaydalara uyğun olanı qəbul etmək olar. Dində belə bir qayda olduğunu bilmirəm. Naiblər, məsələn orada şikəstlər olur ki, onları aparıb-gətirirlər. Ancaq Həcc ziyarətində bu cür naib tutulmağına hələ rast gəlməmişəm".

**Qeyd edək ki, YAP-ın bu həftə açıqladığı siyahıda Qalib Salahzadənin namizədliyi irəli sürülməyib. Onun hazırda deputat olduğu 27 saylı Sabunçu ikinci dairəsindən Cəbrayılova Dilarə Məmmədağa qızının namizədliyi irəli sürülüb.**

❑ **Əli RAİS**

Yeni Müsavat
N 208 (6236) 19 sentyabr 2015

### Ankaranı çalxalayan bir neçə milyardlıq devirim projesi

**Türkiyədə növbəti böyük siyasi təlatümlərin yaşanacağına dair məlumatlar var. Hətta bu təlatümlərin hakimiyyət çevrilişi ssenarisinə qədər inkişaf edə biləcəyi deyilir. İddialara görə, son iki ayda qardaş ölkəyə 10 milyard dollara yaxın vəsait daxil olub. Türkiyə xüsusi xidmət orqanları həmin məbləğin haradan gəldiyini, hansı sektorlara daxil olduğunu öyrənə bilib.**



# Türkiyədə gizli inqilab planı - şok iddialar

Son iki ayda Türkiyə Cümhuriyyəti ərazisinə xaricdən daxil olan 10 milyardlıq vəsaitin dörddə biri tapılmır; qardaş ölkə xüsusi xidmət orqanları ölkəyə gizli şəkildə keçirilmiş 2,5 milyard dolları axtarır; PKK-nın terrora başlaması ilə bu vəsaitin ölkəyə girməsi tarixi üst-üstə düşür...

**Lakin vəsaitin bəlli bir hissəsi ətrafında müəmmaları çözmək mümkün olmayıb. Bu məbləğin 2.5 milyard dollar olduğu deyilir.**

Hazırda PKK ilə müharibə aparan və təkrar seçkilərə hazırlaşan Türkiyə hökumətinin bu məbləğin mənbəyi ilə bağlı ciddi narahatlıq yaşadığı deyilir. Narahatlıq onunla bağlıdır ki, müəyyən qüvvələr 2 milyard yarım dolları gizli şəkildə ölkəyə axıda bilibsə, bunun ardı da gələ bilər. Və ölkədə siyasi kataklizm baş verər, xaos yaşanar, savaş çıxar.

Ancaq hazırda axtarışlara baxmayaraq xüsusi xidmət orqanları bu pulun kimə çatdırıldığını və harda olduğunu öyrənə bilmir. Bu səbəbdən də hökumət qurumları bu nəhəng məbləğin axtarışlarını davam etdirir, eləcə də hakimiyyətə qarşı çıxışların hazırlanmasında şübhəli bilinən qruplar və təşkilatların üzərində nəzarət artırılıb.

**Türkiyə xüsusi xidmət orqanlarında olan məlumata görə, ölkədə inqilab etmək üçün yeni ssenari hazırlanıb.** "İkinci Gəzi" hadisələri şəklində olacaq hadisələr ölkədə AKP hakimiyyətinin devrilməsi ilə yekunlaşmalıdır. Bu prosesin konkret olaraq hansı siyasi partiya və ya təşkilat tərəfindən həyata keçiriləcəyi dəqiq bilinmir. Ehtimal olunur ki, bir sıra QHT-lər vasitəsi ilə kütləvi etirazlar və hökumətə qarşı çıxışlar başladacaq. Bu prosesin təşkilatçısının konkret hansı xarici təşkilat olması, sifarişçilərin kimliyi haqda məlumat verilmir.

Hazırkı hökuməti daha çox narahat edən Türkiyəyə keçirilən gizli 2,5 milyard dollardır. Hüquq-mühafizə orqanları ehtimal edilən çevrilişin məhz bu vəsaitlə icra olunacağını düşünür. Bu səbəbdən də hazırda gizli şəkildə həmin pul və onu saxlayan şəxslər axtarılır.

**İnqilab olduqca bahalı siyasi projedir.** Onun hər hansı ölkədə baş tutması üçün milyardlar xərclənir. Düzdür, sonra inqilaba yatırılan milyonlar, milyardlar çevrilişləri idarə edən böyük dövlətlər tərəfindən artıqlaması ilə çıxarılır. Məsələn, savaş olan ölkələrə silah satılır, dağılan, xaosa girən, viran qalan dövlətlərin maddi sərvətlərinə əl qoyulur. Necə ki, İrqada, Əfqanıstanda, Yaxın Şərqin başqa ölkələrində belə oldu. İndi də Türkiyədə proseslər qızışıb. Az qala hər gün PKK qardaş ölkədə terror törədir. Görünən odur ki, beynəlxalq güclər Türkiyəni geriyədönməz xaosa sürükləyir.

**2.5 milyard dolların Türkiyəyə daxil olması iddiası ilə bu ölkədə terrorun şiddətlənməsi eyni vaxta təsadüf edir. Son iki aydır ki, TC-nin ayrı-ayrı bölgələrində ölümlə nəticələnən silahlı qarşıdurmalar baş verir.**

Xatırladaq ki, 2013-cü ilin fevral-mart aylarında Azərbaycanda facebook inqilabının olacağı haqda məlumatlar dolaşmağa başlamışdı. Bu inqilabı ABŞ Milli Demokratiya İnstitutunun Bakı ofisinin rəhbəri Aleks Qriqoryevsin edəcəyi deyilirdi. Bildirilirdi ki, Amerika ölkəmizə A.Qriqoryevs vasitəsilə 2 milyon dollar vəsait soxub. Guya bu pullarla gəncləri təşkilatlandırıb onların vasitəsilə Azərbaycanda inqilab etmək planlaşdırılır.

**Həmin ərəfədə cəmi 2 milyon dollar vəsaitə görə Azərbaycan iqtidarı çox ciddi narahatlıq keçirmişdi. Bu məlumatdan sonra hüquq-mühafizə orqanları gənclər sektorunda kütləvi həbslər apardı.**

❑ **Beynəlxalq şöbə**


Elton Məmmədov

# Harvard məzunu Elton Məmmədovun yerinə namizəd oldu

**Nəqliyyat naziri Ziya Məmmədovun qardaşı, millət vəkili Elton Məmmədovun deputat seçildiyi 91 saylı Ucar seçki dairəsindən namizədliyini irəli sürülmüş Vüsal Hüseynov barədə məlumatlar dərc etmişdik.**

Bildirmişdik ki, Vüsal Hüseynov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin böyük məsləhətçisidir. O, eyni zamanda Prezident Administrasiyasının tərkibində fəaliyyət göstərən Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibidir.

"Qafqazinfo" isə Vüsal Hüseynovla bağlı maraqlı məlumat edib. Məlum olub ki, YAP-ın gənc namizədi Harvard universitetinin məzunudur. O, eyni zamanda BDU-nun Hüquq Fakültəsini bitirib.

Qeyd edək ki, Vüsal Hüseynov Avropa Şurasının Korrupsiyaya Qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) təşkilatında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Bu arada məlumat üçün bildirək ki, hazırda sözügedən dairədən deputat Nəqliyyat naziri Ziya Məmədovun qardaşı Elton Məmmədovdur. E.Məmmədov isə seçkilərə namizədliyini irəli sürməyib.

# Rusiya bayrağı ilə Avropaya etiraz edən təşkilat sədri danışdı

## İsmayıl Ağayev: "Biz Rusiyapərəst qüvvə deyilik"

**Ötən həftə Beynəlxalq Diaspor mərkəzi Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi qətnaməyə etiraz olaraq Bakıda piket keçirib. Piketdə Rusiya bayrağının dalğalanması, eləcə də yəhudi əsilli doktor Aleksander Şapiro-Sülimanın çıxış etməsi mediada və sosial şəbəkədə müzakirə predmeti olub. Beynəlxalq Diaspor Mərkəzinin rəhbəri İsmayıl Ağayev aksiya ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

- Beynəlxalq Diaspor Mərkəzi Azərbaycanın dünyanın 20-yə yaxın ölkəsində nümayəndəliyi var. O sıradan Türkiyədə, Rusiyada, İsraildə, Yaxın Şərqdə, Şərqi Avropa dövlətlərində. Bir neçə gün öncə xaricdəki nümayəndəliklərimizin təmsilçilərini Azərbaycana dəvət etmişdik. PKK terrorunun güclənməsi ilə bağlı Türkiyəyə dəstək, eyni zamanda Qafqaz İslam Ordusunun Bakını erməni-bolşevik birləşmələrindən azad etməsinin növbəti ildönümü ilə bağlı aksiyalara hazırlaşırdıq. Belə bir vaxtda Avropa Parlamenti Azərbaycanla bağlı qətnamə qəbul etdi. Düşündük ki, bu məsələyə də münasibətimizi bildirməliyik. BDM üzvləri piketə fəaliyyət göstərdikləri ölkələrin bayraqları ilə çıxmışdı. Biz rusiyapərəst qüvvə deyilik.

- **Piketdə Rusiya bayrağını qaldırmağınıza Rusiyadan reaksiyalar oldumu?**

- Yox. Heç bir reaksiya olmayıb. Ümumiyyətlə mən bu məsələnin şişirdilməsini düzgün hesab etmirəm. Biz orada Rusiyanın mövqeyini ifadə etmirdik ki. Bizim təşkilatın əsas vəzifəsi deportasiya qurbanı olan Qərbi Azərbaycandan olan soydaşlarımıza dəstək olmaq, Azərbaycanın ərazi işğalı ilə bağlı beynəlxalq aləmdə təbliğat aparmaqdır. Biz hər zaman Qarabağ problemini Rusiyanın yaratdığını, Ermənistanın arxasında Kremlin dayandığını demişik. Xocalı faciəsində, 1 milyon insanın yurd-yuvasından didərgin düşməsində Rusiyanın günahkar olduğunu açıq söyləmişik. Bunlar faktdır və bizim mövqeyimiz dəyişməzdir. Bizim piketdə Rusiyanın bayrağının olması insanlarda çaşqınlıq yaratmamalıdır. Bizim baxışlarımız dəyişməzdir. Həmin piketdən bir neçə gün öncə PKK əleyhinə yürüş keçirdik. Həmin aksiyada da müxtəlif ölkələrin bayraqları vardı. Aksiyaya yəhudi iş adamı, bizim köhnə dostumuz Aleksander Şapiro-Süliman da qatılmışdı, çıxış elədi, Türkiyənin Bakı böyükelçisi ilə görüşdü. Terrora qarşı bütün insanlıq birləşməlidir. Bizi Rusiyanın maraqlarının qoruyucusu kimi təqdim etmək istəyənlərin nəzərinə çatdırım ki, mənim Rusiyaya və İrana giriş qadağam var.

- **Səbəbi nədir?**

- Çıxışlarımda Rusiyanın Ermənistanı dəstəklədiyini deməyim, Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdırmağım. Beynəlxalq Diaspor Mərkəzi həm Bakıda, həm də Avropa paytaxtlarında Rusiya səfirliyinin qarşısında dəfələrlə piketlər keçirib. Bütün bunlara görə də mənim Rusiyaya girişimə icazə verilmir.

- **Bəs, nə əcəb Rusiyada təşkilatınızın fəaliyyətinə icazə verilir?**

- Biz Rusiyanın daxili işlərinə qarışmırıq. Ancaq Azərbaycanla bağlı həqiqətləri dilə gətiririk. Bu da Rusiya hakimiyyətində təmsil olunan bəzi şəxslərin ürəyincə deyil.

- **Rusiyaya, İrana buraxılmamağınız sizin biznes fəaliyyətinizlə bağlı deyil?**

- Mən böyük iş adamı deyiləm. Nə Rusiyada, nə də İranda biznesim var.

- **Siz bayaq Aleksander Şapiro-Sülimanın adını çəkdiniz. Bu şəxsin piketdə görünməyi, Avropanı, Qərbi tənqid etməyi də birmənalı qarşılanmadı.**

- Aleksander Şapiro-Süliman bizim yaxın dostumuzdu. 10 ildən artıqdır bizim yaxın münasibətlərimiz var. O bizim təşkilatın Yaxın Şərq nümayəndəliyinin rəhbəridir. Onun ciddi bağlarının olduğu İsrail Qərb dünyasının bir parçası olmasına baxmayaraq Aleksander Şapiro Azərbaycanın yanındadır. O, PKK terroruna qarşı da birmənalı mövqeyinin dəfələrlə bildirib. Belə bir şəxsin Azərbaycanın siyasətini dəstəkləməsinə ancaq sevinmək lazımdır. O şəxs Azərbaycanın dostudur, Azərbaycanı sevən insandır.


İsmayıl Ağayev

### "Hafiz Hacıyevin ayrı, bizim ayrı yerimiz var"

- **Parlament seçkisinə gedəcəksinizmi?**

- Artıq təşəbbüs qrupu yaradılıb, namizədliyim irəli sürülüb və biz imza vərəqələrini almışıq.

- **Hansı dairədən iddialınız?**

- 60 saylı Salyan-Neftçala Seçki Dairəsindən. Həmin bölgədə ötən əsrdə bir neçə dəfə Qərbi Azərbaycandan deportasiya olunan insanlar, xeyli qohum-qardaşım yaşayır. Mənim valideynlərim də orda yaşayıb. Xeyirdə-şərdə görüşəndə mənə dəstək olacaqlarını deyiblər, mən də düşündüm ki, ən uyğunu elə bu dairədir.

- **Sizin bu seçkidə müxalifətlə üz-üzə qoyulacağınız haqqında da danışılır. Belə demək mümkünsə, hakimiyyət sizdən istifadə etməklə "Hafiz Hacıyev-2" projesini həyata keçirmək istəyir. Bu iddialara cavabınız nədir?**

- Mən heç bir insanın şəxsiyyəti haqqında fikir söyləmək istəmirəm. Hafiz Hacıyevin də cəmiyyətdə öz yeri var. Bizim də öz mövqeyimiz var. Biz Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşən, vuruşan, canını fəda edən insanlardan biriyik. Biz Çanaqqala şəhidlərinə abidə qoymuş insanlardan biriyik. Biz ictimai təşkilat olaraq fəaliyyət göstəririk. Bizim nə partiyalılığımız var, nə də hansısa partiyaya qarşı yönəlmişik. Biz yeri gələndə torpaq uğrunda vuruşan insanıq. Bizi daha yaxşı yerlərdə görmək olar.

❑ **Aygün MURADXANLI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Rusiya həqiqətənmi Qarabağ düyününü açmaq istəyir?

## Siyasilərin və ekspertlərin məsələyə baxışları fərqlidir; Moskvada yaşayan azərbaycanlı politoloq Kremlə bel bağlamağı yanlış sayır; Bakı isə müharibə variantı üçün ən məqbul zamanı gözləyir, çünki...

**Rusiya beynəlxalq sanksiyalar altında sıxılsa da, Ukrayna və Cənubi Qafqazdan tutmuş, Yaxın Şərq və Suriyaya kimi fəal diplomatiya yürütməkdə davam edir. Rəsmi Moskva həm postsovet məkanında özünün yaradığı münaqişələri hələ ki, uğurla idarə edə bilir, həm də Yaxın Şərq kimi böyük bir böhranlı bölgədə siyasi varlığını nümayiş etdirməkdən ötrü yeni ssenarilər qurur, hətta ABŞ maraqlarını ciddiyə almadan hərbi müdaxilələrə qərar verir.**

**Son addımlar sözsüz ki, ən əvvəl Kremlin özünü qlobal güc və vazkeçilməz beynəlxalq oyunçu kimi yenidən təsdiqləməyə, sanksiyaların ona təsirsiz olduğunu əyani göstərməyə hesablanıb. Rusiyanın özünü qlobal oyunçu qismində apardığı regionlardan biri isə Qarabağ ixtilafının yer aldığı Güney Qafqazdır. Axır vaxtlar virtual da olsa, Moskvanın bu məsələdə ciddi siyasi-diplomatik fəallığı sezilməkdədir - nə barədə ki, artıq amerikalı analitiklər də danışmağa başlayıblar. Hətta Bakı ilə Moskva arasında Qarabağa dair ilkin anlaşmanın olması iddiaları var.**

Mümkündür ki, belə qənaətlərə Bakı ilə Qərb arasında axır vaxtlar yaranmış soyuqluq da yol açıb. Yəni ehtimal edilir ki, Azərbaycanla Rusiya arasında münasibətlərin dərinləşməsi üçün indi qat-qat yaxşı zəmin var. Demək, Qarabağ konfliktinin həllini irəli aparmağa zəmin də əvvəlkindən yaxşı olmalıdır. Bəzi Rusiya rəsmilərinin son açıqlamaları isə bu istiqamətdə əlavə optimist düşüncələrə əsas yaradır.

*****

"Azərbaycan bizim təkcə siyasi sahədə deyil, iqtisadi və digər sahələrdə də tərəfdaşımızdır. İki ölkə arasında ən yüksək səviyyədə siyasi dialoq mövcuddur. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz inkişaf edir. Ümid edirik ki, əlaqələrin hazırkı səviyyəsi qorunub saxlanılacaq və inkişaf etdiriləcək".

**Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova** dünənki brifinqdə bildirib. O, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsinə toxunarkən deyib: "Bəllidir ki, Rusiya bu münaqişənin nizamlanması prosesinə aktiv şəkildə qoşulub. Biz sülh prosesinin məsul iştirakçısıyıq. Ona görə də hər şeyi edəcəyik ki, Qarabağ münaqişəsi düyünün açılmasını tezləşdirək".

Ancaq belədimi? Moskva geçəkdənmi əlindən gələni edir ki, bu üzücü münaqişə nəhayət, çözülsün? Əfsus ki, sualın birmənalı təsdiqi cavabı yoxdur.

*****

Məsələn, Rusiya İslam Komitəsinin sədri, politoloq Heydər Camal fərqli düşünür. Onun sözlərinə görə, Rusiya ilk növbədə Azərbaycanı yenidən Avrasiya İqtisadi Birliyinə cəlb eləmək istəyir: "Ancaq Azərbaycan nəzərə almalıdır ki, o, Rusiya ilə yaxınlaşmaqla öz problemlərini həll etməmək bir yana, üstəlik, Rusiyanın problemlərini bölüşmək riskinə gedir".

**Ekspertə görə, Qarabağ məsələsində Qərblə Rusiya arasında seçim də yanlışdır, çünki:** "Qərb Bakıya Dağlıq Qarabağ məsələsində beynəlxalq hüququn təsbit olunmasına kömək göstərmədiyi kimi, Rusiya da öz erməni müttəfiqindən heç vaxt imtina etməyəcək və Azərbaycana kömək göstərməyəcək".

Heydər Camalın Qarabağ müharibəsində ABŞ və Rusiyanın özünü necə aparacağı ilə bağlı suala verdiyi cavab da çox maraqldır: "Onların özünü necə aparacağı Ukrayna nümunəsindən görünür. Qərb özünü elə göstərir ki, Ukraynanı dəstəkləyir və Rusiyaya qarşı sanksiyalar tətbiq edir. Bu - Rusiyanın vəziyyətini pisləşdirir, ancaq Ukraynaya az kömək edir. Qarabağda müharibə başlasa, Rusiya Ermənistanın tərəfini tutacaq, Qərb isə özünü elə aparacaq ki, guya Bakının yanındadır".

Belə çıxır ki, Rusiyanın fəallaşan Qarabağ diplomatiyası problemin ədalətli həllindən daha çox, özünün regional maraqlarını ödəməyə hesablanıb.

*****

**Müharibədən söz düşmüşkən, Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyir ki, bir qrup əcnəbi ekspert, o cümlədən Hamburq universitetinin professoru Otto Lyuxterxandt Azərbaycanın müharibəyə başlayacağının pik dövrün arxada qaldığını proqnozlaşdırır:** "Onların fikrincə, "Azərbaycan resurs dövləti-dir, dünya bazarında neftin qiyməti aşağı düşən kimi Azərbaycanın imkanı zəifləyir. Ermənistan isə dinamik iqtisadi inkişaf modeli seçməli olan dövlətdir. Ermənistanda sabitlik var. Ona görə Ermənistan Azərbaycandan üstündür" ("Trend").

**Politoloqa görə, bu cür fikirləri erməni səsləndirəndə bunu erməni psixologiyasının və ya xəstə erməni təxəyyülünün məhsulu kimi başa düşmək olar, xarici ekspertlər belə şərhlər verəndə isə onların erməni olmadığına inanmaq mümkün deyil:** "Çünki Azərbaycanla Ermənistanın hətta indiki start vəziyyətini götürsək belə, biz xeyli üstünük. Azərbaycan prezidenti İlham Əliyevin təbirincə nefti, qazı unudaq. Bu gün Azərbaycanın 50 milyard dollarlıq qızıl valyuta ehtiyatı var. Azərbaycan beynəlxalq iqtisadi layihələrin reallaşdığı məkandır. İranla "Altılıq" arasında imzalanmış müqavilə İranı regional və beynəlxalq miqyasda iri layihələr reallaşdırmağa sövq edir. Yayılan bütün məlumatlarda İranın Azərbaycanla iqtisadi əməkdaşlığa böyük önəm verdiyi aşkar görünür. İranın öz qazını Avropa bazarına çıxarmaq üçün hazır infrastrukturu yoxdur. İran birdən-birə ildə 50-60 milyard kub metr qaz hasil edib, bunu Avropaya sata bilməz. İran işə tədricən başlamalıdır. Bu məsələdə İran üçün ən sərfəli infrastruktur məhz Azərbaycandadır".

**Əhmədoğlu qeyd edib ki, beynəlxalq enerji layihələrinin reallaşması xeyli infrastruktur layihələrə təkan verib, bundan sonra da verəcək:** "Dağlıq Qarabağın işğaldan azad edilməsi Azərbaycanın iqtisadi həyatında real inqilab yarada bilər. 10 il ərzində təxminən 300 milyard dollarlıq bərpa xarakterli layihələr reallaşdırıla bilər. Azərbaycan üçün bu böyük rəqəmdir. Azərbaycan hətta indiki start vəziyyətində belə perspektivlərə malikdir. İqtisadi, siyasi fəal vətəndaşlar Ermənistanı tərk edirlər. Hətta bu fonda mitinqlər və həbslər var. Ciddi ekspert Ermənistanda sabitliyə istinad edə bilməz. Ermənistanın xarici borcu ÜDM-in 50%-ini ötüb keçib. Hətta Rusiyada maliyyə böhranının ardıcıl davam etməsi də erməni iş adamlarının pulunu Ermənistana gətirməyə şərait yaratmayıb".

**Mərkəz rəhbəri sonra vurğulayıb ki, İran kimi iri dövlətlər Ermənistan ərazisində iri layihələr reallaşdıra bilməzlər. Çünki Ermənistan müstəqil deyil:** "İranın bir çox layihələri Ermənistan ərazisindən başqa bir dövlətin diktəsilə əlindən alınıb, qarşıdakı




layihələri də analoji tale gözləyə bilər".

**Politoloq hesab edir ki, Azərbaycanın müharibəyə başlaya bilməyəcəyilə bağlı proqnoz verənlərin böyük əksəriyyəti Türkiyənin daxili vəziyyətinə söykənirlər:** "Guya Türkiyə Azərbaycanın əsas donor dövlətidir, Türkiyə zəifləyibsə, Azərbaycanın resursları məhdudlaşıb. Hərbi təlimlərin hərbi əməliyyatlara çevrilməməsinin səbəbləri isə Azərbaycandan fərqli görünür: birincisi, bu yuxarıda sadaladığımız vəziyyətdir. Azərbaycanı idarə edənlərin ağlı və siyasəti var, hökmən baş verənlərin təhlili aparılmalıdır; ikincisi, Türkiyənin daxili vəziyyəti qeyri-müəyyəndir, parlament seçkilərində hökumət qurulmalıdır. Türkiyə erkən seçkilərə getdi. Belə vəziyyətdə Azərbaycanın müharibəyə başlaması Türkiyənin daxilində əlavə gərginlik mənbəyi yaradardı; üçüncü səbəb isə BMT Təhlükəsizlik Şurasının (TŞ) fəaliyyəti ilə bağlıdır. Hər il yayda BMT TŞ ən azı 2 ay "dincəlirdi". Bu il TŞ Ukrayna, Suriya, İran və s. məsələlərlə əlaqədar demək olar ki, daim fəaliyyətdə olub".

**Politoloqa görə, Azərbaycan müharibə variantından əl çəkməyib, sadəcə, öz metodologiyasına uyğun şəkildə hərbi potensialını genişləndirir, inkişaf etdirir.**

*****

**Ekspertlərin söylədiklərindən belə qənaət hasil olur ki, Bakının Qarabağ məsələsində Moskvaya bel bağlaması yanlış və kifayət qədər təhlükəlidir. Azərbaycan ən yaxşı halda konflikt ətrafında məqbul şərait yetişənə, o sırada Rusiya amili təsirsiz (neytral) hala gələnədək gözləməli, bu müddətdə isə həmin şəraitin yetişməsinə yardımçı olmalıdır. Bundan ötrü o, təbii ki, ilk növbədə özünün hərbi-iqtisadi gücünü durmadan artırmalıdır. Bu, həm də ona görə vacibdir ki, konfliktin həll açarı Qərbə keçəndə sonuncu Azərbaycanın gücü ilə - Ermənistan üzərində əzici üstünlüyü ilə hesablaşsın. Unutmayaq ki, müasir dünyada haqlı olmaq üçün həm də gərək güclü olasan...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 208 (6236) 19 sentyabr 2015

# Azərbaycanda 100 nəfər əlilə minik avtomobilləri verilib

**Azərbaycanda bu il ərazində növbəyə dayanan daha 100 nəfər müharibə əlili və onlara bərabər tutulan şəxsə minik avtomobilləri verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən "Report"a verilən məlumata görə, onlardan 7 nəfəri Böyük Vətən müharibəsi və 58 nəfəri Qarabağ müharibəsi əlilləri, digərləri 20 yanvar, Çernobıl AES əlilləri və hərbi xidmət vəzifələrini yerinə yetirərkən əlil olanlardır.**

Avtomobillərin təqdim olunması zamanı nazirliyin yanında Dövlət Sosial Təminat Xidmətinin rəisi Çingiz Əliyev bildirib ki, ötən il 2014-cü ilədək növbəyə dayanan bütün müharibə əlilləri və onlara bərabər tutulan şəxslər "Naz-LİFAN" markalı minik avtomobili ilə tam təmin olunublar: "Eyni zamanda 2014-cü ilin mart ayınadək növbəyə dayananlara da artıq minik avtomobilləri verilib. Hazırda xüsusi tibbi göstəriş əsasında bu il ərzində növbəyə dayanan imtiyazlı şəxslərin minik avtomobili ilə təminatı işləri aparılır".

**Xidmət rəisi bildirib ki, müharibə əlilləri və şəhid ailələrinin yeni mənzillə təminatı işləri də uğurla davam etdirilir:** "Respublikanın bölgələrində 375 fərdi evin tikintisi həyata keçirilib və inşası başa çatmış evlərin istifadəyə verilməsinə başlanılıb".

**Tədbirin sonunda əlil ictimai birliklərinin rəhbərləri əlilliyi olan insanlara, o cümlədən müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə dövlət qayğısına görə minnətdarlıqlarını ifadə ediblər.**

# Milli Park "Azenco" şirkətini məhkəməyə verdi

**Hirkan Milli Parkı "Azenco" Açıq Səhmdar Cəmiyyətini (ASC) məhkəməyə verib. "Report"un xəbərinə görə, Milli Park zərərin əvəzinin ödənilməsini tələb edir. İddiaya 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində baxılır. Qeyd edək ki, Hirkan Milli Parkı Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə 2004-cü il fevralın 9-da yaradılıb.**

Milli Park Azərbaycanın cənub-şərqində, Lənkəran və Astara inzibati rayonlarının ərazisində yerləşir. "Azenco" şirkəti isə dövlət müəssisəsi olan "Azərenerji" ASC-nin tərkibində "Azərenerjitikinti" MMC adı altında fəaliyyət göstərib. Bir müddət sonra "Azenco" Açıq Səhmdar Cəmiyyətinə çevrilib. Şirkətin xüsusi kapitalının həcmi təxminən 500 milyon ABŞ dollarına bərabərdir.

# Maskalılar evə basqın etdi, 86 yaşlı qadını döyüb öldürdülər

**Zaqatalada yaşayış evinə basqın olub. Hadisə rayonun Əliabad qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 86 yaşlı Xanpəri Cahangir qızı Səfərovanın evinə girən maskalı şəxslər onu və həyat yoldaşını hədələyərək pul tələb ediblər. İstədikləri pulu ala bilməyən maskalılar qadını döyərək öldürüb, ərinə isə xəsarət yetirərək hadisə yerini tərk ediblər.**

Hadisə ilə bağlı Zaqatala Rayon Polis Şöbəsinə gecə saatlarında məlumat daxil olub, hadisə yerinə əməliyyat qrupu çıxıb.

Hazırda polis və prokurorluq əməkdaşları hadisəni törədən şəxslərin müəyyən edilərək tutulması istiqamətində əməliyyat-axtarış tədbirlərini davam etdirirlər.

Faktla bağlı Zaqatala Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanıb, istintaq gedir (APA).

Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

# Sumqayıtdakı dəhşətli qəza ilə bağlı yeni faktlar

## Sürücünün mikroavtobus idarə etməyə icazəsi yox imiş



**Sumqayıt-Bakı yolunda baş verən dəhşətli mikroavtobus qəzası ilə bağlı bəzi məqamlar aydınlaşıb. Lent.az-ın əldə etdiyi məlumata görə, qəza nəticəsində "Ford Transit" markalı mikroavtobusun sürücüsü Baloğlan Ağakişiyev ağır xəsarətlər alıb. Sumqayıt şəhər xəstəxanasına yerləşdirilən sürücü kəllə-beyin travması alıb və beyin qapağına xeyli qan yığılıb. Həkimlər onun vəziyyətini hələ də ağır qiymətləndirir.**

Bildirilib ki, ağır vəziyyətdə olmasına baxmayaraq, B.Ağakişiyev polis nəzarəti altındadır və sağalan kimi məhkəməyə çıxarılacaq və böyük ehtimallar barəsində həbs-qətimkan tədbiri seçiləcək.

Araşdırmalar nəticəsində o da məlum olub ki, B.Ağakişiyevin sürücülük vəsiqəsi avtobus idarə etməyə yol vermirmiş. Həmçinin onun idarə etdiyi nəqliyyat vasitəsinin sərnişindaşıma ilə bağlı qanuni sənədi -lisenziyası olmayıb. Qəzaya düşən "Ford Transit"ə verilmiş lisenziya müddəti 2012-ci ildə başa çatıbmış və həmin vaxtdan sonra lisenziya alınmayıb.

Qeyd edək ki, sentyabrın 17-də saat 09 radələrində Abşeron rayonunun Ceyranbatan qəsəbəsində Sumqayıt şəhər sakini Baloğlan Ağakişiyev idarə etdiyi "Ford Tranzit" markalı mikroavtobusu yolun kənarındakı yol ayırıcısına vurub. Nəticədə onun sərnişinlərindən - Xırdalan şəhər sakini Ofeliya Məmmədova, Masallı rayon sakinləri Elnur Cəfərov və Amil Abdullayev hadisə yerinə ölüb, 9 sərnişin isə xəstəxanaya yerləşdirilib.

Faktla bağlı cinayət işi açılıb, araşdırmalar aparılır.

# Bakıda qadın özündən çıxdı, adam vurdu

**Bakıda qadın sürücü avtomobillə qəsdən adam vurub. Xətai rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, Bakı şəhər sakini İlkin Şahbazov ərizə ilə polis idarəsinə müraciət edərək bildirib ki, sentyabrın 11-də Məhəmməd Hadi küçəsində avtomobillə hərəkət edən zaman eyni istiqamətdə hərəkətdə olan 1985-ci il təvəllüdlü Günel Mahmudova idarə etdiyi "Hyundai Sonata" markalı 90 SF 136 dövlət nömrə nişanlı avtomobillə qəza şəraiti yaratdığı üçün ona iradını bildirib.**

Bu zaman onların arasında mübahisə baş verib və G. Mahmudova xuliqanlıq zəminində avtomobili İ.Şahbazovun üzərinə sürərək onu vurub. Faktla bağlı araşdırma aparılır.

# Qadının evindən 110 minlik oğurluq edən şəxs yaxalandı

**Bakıda qadının evindən külli miqdarda pul və qızıl oğurlayan şəxs tutulub. Lent.az Bakı Şəhər Baş Polis İdarəsinə istinadən xəbər verir ki, Nərimanov Rayon Polis İdarəsinin Cinayət Axtarış Şöbəsinin və 16-cı polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 26-da saat 23:30 radələrində A.Gəraybəyli küçəsində 1968-ci il təvəllüdlü Şəhla Əhmədovanın mənzilindən açarseçmə yolu ilə içərisində 40.000 manat, 20.000 ABŞ dolları və 50.000 manat dəyərində qızıl-zinət əşyaları olan seyfi oğurlmaqda şübhəli bilinən, CM-nin 177-ci maddəsi ilə 28 iyul 2015-ci il tarixdən Tərtər RPŞ tərəfindən axtarışda olan Cəlilabad rayon sakini, 1990-cı il təvəllüdlü Elnur Rasim oğlu Əliyev tutulub. Araşdırmalar davam etdirilir.**

Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

# "Nar" WSA qlobal innovasiya şəbəkəsinin tərəfdaşıdır

## Mobil operator Bakıda keçirilən "World Summit Award" Böyük münsiflər heyətinin görüşündə tərəfdaş qismində iştirak edir



**Hər zaman innovativ dəyişiklikləri alqışlayan "Nar" daha bir yenilikçi təşəbbüsə dəstək verdi. Belə ki, mobil operator 17-19 sentyabr 2015-ci il tarixləri arasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, ASAN - İnnovasiyalar mərkəzinin və "ADA" Universitetinin təşkilatçılığı ilə Bakıda keçirilən "World Summit Award" Böyük münsiflər heyətinin ənənəvi görüşündə rəsmi tərəfdaş qismində iştirak edir. Bu görüşdə dünyanın müxtəlif bölgələrindən gələn beynəlxalq ekspertlər yeni rəqəmsal innovasiyalar və onların sosial təsiri barədə dəyərli fikirlərini bölüşəcəklər.**

**WSA startap müəllifləri, innovasiya təşəbbüskarları, təlimçilər, münsiflər, IT ekspertləri, hökümətlər və beynəlxalq təşkilatlardan ibarət qlobal bir təşkilatdır. Bu görüş BMT İnformasiya təhlükəsizliyi dünya sammiti çərçivəsində 2015-ci ilə dair inkişaf proqramını dəstəkləmək məqsədilə təşkil edilir. Görüşün əsas təşkilatçısı Avstriyada fəaliyyət göstərən qeyri-kommersiya təşkilatıdır. WSA il ərzində 20-dən çox lokal, regional və qlobal səviyyəli görüşlərin, tədbirlərin və seminarların keçirilməsini nəzərdə tutur və gənc innovasiya təşəbbüskarlarını, habelə rəqəmsal yaradıcılığı təşviq edir. Sosial həyata güclü təsir edə bilən və dünyanın ən innovativ rəqəmsal həllərinin tanıdılması məqsədi daşıyan görüş, BMT modelinə uyğun olmaqla, fərqli, demokratik və son dərəcə rəqabətə davamlı bir mükafatlandırma sistemini ehtiva edir.**

# "Bakcell"in Ulduzum sadiqlik proqramı telekommunikasiya sahəsində "Ən yaxşı istehlakçı xidməti"dir




**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin Ulduzum sadiqlik proqramı Yaxın Şərq, Mərkəzi və Cənubi Asiya və Şimali Afrika ölkələrində telekommunikasiya sahəsində "Ən yaxşı istehlakçı xidməti" adına layiq görülüb.**

**14 sentyabrda Dubayda keçirilmiş nüfuzlu "Telecoms World Middle East Awards 2015" mükafatının təqdimetmə mərasimində "Bakcell"in Ulduzum proqramı "Telecoms World" təşkilatı tərəfindən 5 finalçı arasında birinci yerə layiq görülüb.**

**Müsabiqə Yaxın Şərq, Mərkəzi və Cənubi Asiya və Şimali Afrika bölgələrinin müxtəlif ölkələrindən olan və telekommunikasiya sahəsində fəaliyyət göstərən şirkətləri təmsil edən 250 namizəd arasında keçirilib.**

**"Biz bu mükafata layiq görülməyimiz və 250 telekommunikasiya şirkəti arasında birinci yeri tutmağımızla fəxr edirik. Bu fakt sübut edir ki, "Bakcell"in Ulduzum proqramı təkcə Azərbaycanda deyil, Yaxın Şərq, Mərkəzi və Cənubi Asiya və Şimali Afrika regionunda ən yaxşı istehlakçı xidmətidir. Bu isə həm də dünyada ən yaxşılardan biri deməkdir. Biz inanırıq ki, bu, hələ başlanğıcdır, Ulduzum Bakcell abunəçiləri üçün ən yaxşı müştəri təcrübəsi olmağa davam edəcək, daha da təkmilləşəcək və gələcəkdə bir çox mötəbər mükafatlar qazanacaq", deyə Bakcell şirkətinin baş icraçı direktoru cənab Riçard Şirer bildirib.**

**"Ən yaxşı istehlakçı xidməti" mükafatı ilə təltif olunması Bakcell üçün daha bir uğur hekayəsidir. Şirkət müştəri ehtiyaclarının düzgün başa düşülməsi, göstərdiyi xidmətlərin və müştərilərinin ümumi təcrübəsinin daha da təkmilləşdirilməsi istiqamətində çox işlər görür.**

**1 milyon 400 nəfərdən çox abunəçisi ilə Ulduzum bu gün abunəçilərə müxtəlif çeşidli güzəşt və xidmətlər təklif edən, həmçinin öz abunəçilərimizin və və Ulduzum proqramının tərəfdaşları olan müəssisələrin müştərilərinin loyallığını təşviq edən ən uğurlu və populyar loyallıq proqramlarından biridir. Bu yaxınlarda istifadəyə verilmiş xüsusi mobil tətbiqetmə vasitəsilə Bakcell abunəçiləri, mövcud SMS və USSD əsaslı məlumat mübadiləsi ilə yanaşı, həm iOS, həm də Android platforması üzərindən Ulduzum endirimlərindən faydalana bilirlər.**

**"Telecoms World Middle East Awards 2015" və onun qalibləri barədə daha ətraflı məlumatla http://www.terrapinn.com/conference/telecoms-world-middle-east/C58283.stm**

YENİ MÜSAVAT
N 208 (6236) 19 sentyabr 2015




# Uşaqların intihar etməsinin səbəbi

## Psixoloq Dəyanət Rzayev: "Niyə neft ölkəsi belə acınacaqlı vəziyyətdə olmalıdır?!."

**Bir neçə gün öncə İsmayıllı rayonunda bilik gününə bir gün qalmış 12 yaşlı şagirdin özünü asması hamını şoka saldı. Bu kimi faciələrlə az qala, hər il məktəbqabağı rastlaşırıq. Bəzən şagirdlər məktəbə tam hazırlaşa bilmədikləri və digər şagirdlərdən seçiləcəklərini ciddiyə alaraq, bəzən də valideyn övladının istəklərini həyata keçirə bilmədiyi və onu ürəyincə məktəbə yola sala bilmədiyi üçün çıxış yolunu intiharda görürlər.**

Qeyd edək ki, Azərbaycanda övladını istədiyi kimi dərs ləvazimatları və məktəb geyimi ilə təmin edə bilməyən ailələr az deyil. Ancaq Azərbaycandan fərqli olaraq xarici ölkələrdə bu cür imkansız ailələr müxtəlif şirkətlər tərəfindən qeydiyyata alınır və məktəbə gedəcək uşaqların əksiyi qarşılanır. Azərbaycanda isə sosial vəziyyəti ağır olan ailəyə yardım edilərində də yardım edən şəxs və ya şirkət bunu elə formada təqdim edir ki, bu, yardımdan çox özünü reklama bənzəyir, eyni zamanda yardım alanı diskamfort durumda qoyur.

Maraqlıdır, hər il məktəbqabağı bu cür problemlərin yaşanmaması üçün nə etmək lazımdır?

**Psixoloq Dəyanət Rzayev** əmindir ki, uşaqların intiharında günahkar məmurlar və çürümüş cəmiyyətdir: "O vaxtlar maaşlar az idi. Anam 70, atam isə 90 manat alırdı. Biz 4 uşaq idik. O vaxt məktəb iki il dalbadal özü mənim formamı verdi. Öz övladını məktəbli ləvazimatı, forma ala bilməyən ailələr çoxdur. Amma hər uşaq da bu səbəbə görə intihar etmir. Uşaq digərlərinə baxanda daha çox həssas olub. Mən İsmayıllıda baş verən intihar olayını oxudum. Orada məktəb direktoru deyib ki, hər şey əla idi, ailə yaxşı dolanırdı. Axı o, niyə yalan danışır?! Sən düşünmürsən ki, sənin yalanının üstü açılacaq? Cəmiyyətə belə dezinformasiya vermək lazım deyil. Burada çox təzyiqlər olub. Bank işçiləri də gəlib evlərindəki əşyaları müsadirə edəcəklərini deyib. Bu da uşaqlara təsir edir. Təbii ki, uşaqlar fərqli olur. Uşaq var ki, heç nəyi vecinə almır. Amma intihar edən uşağın qiymətlərinə baxanda da bilinir ki, bu uşaq çox həssas uşaq olub. Valideynlər də uşağın gözü önündə olur. Hər nə qədər sıxıntını gizlətməyə çalışsalar da uşaqlar bu söz-söhbəti eşidir".

**Psixoloqa görə, elə uşaqlar da var ki, çox şeyi özünə qəbul edir, içinə salır:** "Məsələn, düşünür ki, əgər mən bu dünyada olmasaydım, valideynim daha az əziyyət çəkər, mənim üçün çanta, məktəbli forması almaq məcburiyyətində qalmazdılar. Bu cür həssas uşaqlar bu cür düşündükləri üçün intihar yolunu seçirlər. Biz digər millətlərə baxanda ailəmizə qarşı çox həssaslıqla yanaşırıq. Onların qayğısına qalır, tez-tez baş çəkirik. Hətta ailə qurduqdan sonra da öz yanımızda yaşadırıq. Halbuki, xarici ölkələrin heç birində belə bir şey yoxdur. Bizdə 90-cı illərdə büdcə 1 milyard olmuşdu, amma hamı dolanırdı. Monopoliya, oliqarxlar yox idi. Amma indi büdcə 20 milyarddır və heç kim dolana bilmir. Neft ölkəsi olsaq da, insanlar kreditlərin içində boğulur. Banklara bütün səlahiyyətlər verilib ki, get pulu verə bilməyən kreditçinə nə istəyirsən et. Polisə müraciət edəndə də deyirlər ki, bu bizlik deyil, məhkəmə işidir. Adamı gəlib öldürsələr belə, polis müdaxilə etmir. Görün vəziyyət hansı həddə çatıb ki, uşaq intihar edir. Hamı bu haqda yazır, danışır. Ancaq heç kim demir ki, nə etmək lazımdır. Niyə neft ölkəsi belə acınacaqlı vəziyyətdə olmalıdır?! Çox ölkələrdə neft yoxdur, amma çox yaxşı yaşayırlar. Necə ola bilər ki, 15 milyard pul Azərbaycan xalqına bəs eləməsin? O pulları talamasalar, yeməsələr bəs edərdi. Biz axı kimi aldadırıq? Suriyada uşaq batıb öldü, bütün dünya ayağa qalxdı. Amma bizdə nə qədər körpə uşaq ölür, heç kim buna reaksiya vermir. İsmayıllıda baş verən hadisə, bir uşağın intihar etməsi Suriyada baş verəndən də dəhşətli faciədir".

**D.Rzayev uşağın intiharın məktəbin də günahı olduğunu bildirdi:** "Məktəb hər bir şagirdi ilə maraqlanmalı idi. O vaxtlar məktəblərdə hamı ilə maraqlanır, kimin kasıb, kimin varlı olduğunu bilirdi. Sinif rəhbəri də maraqlanmalı idi. Uşaqda, valideyndə günah axtarmaq lazım deyil. Günahı çürümüş cəmiyyətdə və dövlət məmurlarında axtarmaq lazımdır".

❑ **Günel MANAFLI**




## Bakı-Sumqayıt qatar yolunda çəpərləmə işləri aparılacaq

**Bakı-Sumqayıt sürətli elektrik qatarının istifadəyə verilməsindən iki gün sonra bədbəxt hadisə baş verdi. İlkin yayılan məlumatda deyilirdi ki, 17 sentyabr tarixində səhər saatlarında Sumqayıt sərnişin stansiyasından çıxan qatar dəmiryolu xətti üzərində azyaşlı uşağı vurub. Uşağın hadisə yerindəcə vəfat etdiyi bildirildi.**

Eyni zamanda elə həmin günü yayılan məlumata görə, saat 07:55 radələrində Sumqayıtdan Bakıya gələn elektrik qatarı Keşlə yük mənzilinin 26-56-cı kilometrliyindən keçərkən qəsəbə sakini Qətibə İsmayıl qızı Abdullayevanı vurub öldürüb.

Hadisələrlə bağlı musavat.com-a danışan **"Azərbaycan Dəmir Yolları" QSC-nin Mətbuat Katibliyinin rəisi Nadir Əzməmmədov** bildirib ki, mətbuatda qatarın səhər saatlarında uşaq vurması ilə bağlı yayılan məlumat doğru deyil. N.Əzməmmədov eyni zamanda onu da bildirdi ki, baş verə biləcək bədbəxt hadisələrlə bağlı tədbirlər görməkdədirlər:

"Keşlə qəsəbə sakini Qətibə Abdullayevanın özünü qatarın altına atması faktı qatarda olan nəzarət kameraları tərəfindən çəkilən görüntülərdən də açıq şəkildə görünür. Bu kimi bədbəxt hadisələrin qarşısını almaq üçün Bakı-Sumqayıt qatarını bizim xüsusi mühafizə dəstəmiz müşahidə edir. Hazırda da onlar iş başındadırlar. Növbəti aylar ərzində qatarın keçdiyi yaşayış yerlərində dəmir yolu xəttinin ətrafında, təhlükəsizlik üçün çəpərlər tikiləcək. Çəpərlənmə işləri "Koroğlu" stansiyasına qədər həyata keçirilib. Bu işlər davam etdiriləcək. İnsanlar bu qatarın sürətindən məlumatsız olduqları üçün, dəmir yolu xəttinə çıxırlar. Nəticədə isə bu kimi hadisələr baş verir. Bununla əlaqədar dəmir yolu xəttinə yaxın ərazilərdə yaşayan insanlarla da görüşüb, onları təlimatlandırmışıq".

❑ **Əli RAİS**

# Dəri xəstəliklərinin əlacı - "Şır-Şır" bulağı

## Sakinlərin dediyinə görə, ondan səmərəli istifadə eləməklə Salyanda işsizliyin səviyyəsini azaltmaq da olar...

**Salyan rayonu dağlıq və meşəlik ərazidə yerləşməsə də, müalicəvi əhəmiyyətli suları və palçıq vulkanları ilə zəngindir. Bu haqda yerli və ətraf rayon sakinləri arasında məlumatlar olsa da, ümumilikdə məlumat yetərincə deyil.**

Bu dəfə bəhs edəcəyimiz ərazi həm baxımsızdır, həm də kifayət qədər təbliğ edilmir. Söhbət mənbəyi hələ də bilinməyən "Şır-şır" bulağından gedir.

Mütəxəssislərin dediyinə görə, bulaqdakı hidrogen-sulfid qazı dəri xəstəlikləri ilə yanaşı şişxassəli xəstəlikləri törədən ağır metalları da bədəndən çıxarır. Heyf ki, belə müalicəvi əhəmiyyətli yer baxımsız qalıb. Belə ki, ərazi təmizlənmir, nəzarət edilmir. Buraya gəlmək üçün gərək yerli sakinlərdən yardım alasan. Çünki yol boyu ərazini göstərən heç bir işarə yoxdur.




**Deyilənlərə görə, dəri xəstəliyindən əziyyət çəkən hər kəs bu suda 2 dəfə yuyunmaqla şəfa tapa bilir. Yerli sakinlərin musavat.com-un əməkdaşına verdikləri məlumata görə, buraya bir çox rayonlardan şəfa tapmaq üçün gəlirlər:** "Elə dəri xəstəlikləri var ki, dərmanlar fayda vermir. Amma bu suda 2 dəfə yuyunmaqla, ondan həmişəlik xilas olmaq mümkündür. Təbii yollarla yerin altından çıxan bu suyu ilk dəfə kim kəşf edib, bilmirik. Amma atam 6 yaşında olanda ayağında qəribə bir yaralar çıxıbmış. Onu bu su ilə sağaldıblar. İndi atamın 78 yaşı var. Yəni buranın tarixi lap qədimlərə gedib, çıxır. Amma baxan yoxdur".





**Rayon sakinləri belə müalicəvi ocaqdan faydalanmayan qurumarı tənqid etdilər. Onların fikrincə, ərazidən normal şəkildə istifadə edilsə, bütün rayon camaatı işsizlikdən də xilas ola bilər:** "Burada qazıntı işləri aparıb, suyun daha çox axmasına şərait yaratmaq olar. Bu sudan dərman düzəldib, satmaq olar. Əgər bilmirlərsə, biz deyək. Rayonda camaatın işlədiyi bir-iki yer var - ya kərpic zavodu, ya da quşçuluq sexi. Əgər bu ərazidə işlər getsə, otel, istirahət, müalicə mərkəzi tikilsə, yerli camaat da işsiz qalmaz. Bu sudan dərman hazırlamaq üçün zavod tiksinlər. Ətraf boş ərazidir. Zavodda da sakinlər işləyər. İşsiz heç kim qalmaz. Kənardan turistlər gələr. Qalmağa ev axtararlar, camaat evini onlara kirayə verər. Buradan da qazanarlar. İnsanların yaşayış tərzi yüksələr. Hamı kasıb yaşayır. Cavanlar iş tapmırlar deyə hərbi qulluğa yazılırlar. Əgər burada iş yerləri açılsa, hamı çörək pulu qazanar.

Bakıya rayon maşınlarını buraxmırlar. Guya bu yolla tıxacın qarşısını alacaqlar. Amma onlar camaatı yox, özlərini düşünürlər ki, istidə, soyuqda öz lüks maşınlarında tıxacda qalmasınlar. Biz Bakısız da yaşaya bilərik. Camaatın paytaxta üz tutmasının səbəbi, işdir. Rayonda iş yoxdur deyə, hamı Bakıya qaçır. Burada iş yerləri açsınlar, heç kim orada qalası deyil. Və bunun üçün də ideal imkanlar var".

**Salyanı hamı düzənlik bir ərazi kimi tanıyır. Amma bir az araşdıranda bəlli olur ki, buradakı yeraltı sular, yüzlərlə xəstəliyə əlac ola bilər. Sadəcə bir qədər diqqət ayırıb, iş görmək lazımdır.**

❑ **Məhəmməd Türkmən**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 208 (6236) 19 sentyabr 2015

# Təhqir edildi və "dəli" oldu...

14 yaşlı şagirdin "terrorçu" elan edilməsindən sonra Amerikada yeni bir biabırçılıq baş verib. Məlumatlara görə, Amerika polisi qaradərili bir qadını heç bir günahı olmadığı halda həbs edib. 32 yaşlı Kamilah Brock adlı qadın Nyu-Yorkda maşın sürürmüş. Qırmızı işıqda dayandığı zaman maşınının içində rəqs etməyə başlayıb. Həmin vaxt bir polis gəlib və əllərinin niyə sükanın üzərində olmadığını soruşub. Brock yaşıl işığın yanmasını gözlədiyini desə də polis onu nəzarət götürüb. Bir neçə saat polis şöbəsində saxladıqdan sonra qadın maşını əlindən alınaraq buraxılıb. Ertəsi gün gənc qadın maşınını götürmək üçün polis şöbəsinə getdiyi zaman polis maşının ona aid olmadığını deyib. Gənc qadın maşının ona aid olduğunu və hətta Amerika prezidenti Barak Obamanın onunla sosial şəbəkələrin birində dostluq etdiyini dediyi üçün ağıl xəstəxanasına göndərilib. Qadın 8 gün xəstəxanada saxlanılıb. Xəstəxanadan çıxdıqdan sonra mediaya açıqlama verən qadın onu təhqir etdiklərini və qaradərili bir qadının "BMW" markalı maşına sahib olmasının polisləri narahat etdiyini deyib.






## Almanın qabığı da sağlamlıq saçır!

**Sağlamlığımızı müsbət istiqamətdə təsir edən almanın faydalarını az-çox bilirik, amma soyaraq atdığımız qabığının böyük əhəmiyyət daşıdığını daha əvvəl eşitmişdinizmi?**

Alma qabığı daha çox antioksidanta sahibdir. Şəkər xəstəliyinə qarşı həm bir qoruyucu, həm də içindəki pektin sayəsində şəkəri aşağı salan təsiri var, ayrıca xolesterolu da aşağı salmağa təsirə sahibdir. Alma pektin maddəsi ilə ən zəngin meyvələrdəndir. Bol lifli qidaların məzmunu sayəsində iştahanı azaldır. Piylənmə ilə mübarizədə əhəmiyyətli bir qaynaqdır. Hərəkətsiz olan həyat tərzimizdən ötəri əzələ əriməsini manea törətdiyi üçün bədənimizin daha yaxşı görünməsini təmin edər. Xərçəng hüceyrələrinin törəməsini manea törətməyə köməkçi olan alma qabığı bu istiqamətı ilə də dəriyə sürtüldüyündə dərini gərginləşdirmədə və qırışmaya qarşı birə-bir təsirlidir.

Diş sağlamlığı üçün də alma qabığı çox faydalıdır. Dişləri təmizləyər və diş ətlərini gücləndirər. Tək əkinçilik dərmanları və digər zərərli faktorlara qarşı almanı çox yaxşı yumanız lazım olduğunu unutmayın.

## Yaddaşı möhkəmləndirməyin 10 yolu

**Deyilənə görə, iti yaddaşa sahib olmaq çox zaman təbiətdən gəlir. O da bildirilir ki, pis yaddaş düzələ bilməz. Əslində isə yaddaşı möhkəmləndirməyin çox yolu var. Bunlardan 10-u barədə söhbət açaq.**

**1.** Maraqlanmaq - səy göstərmək. Bacardıqca çox sual vermək yaddaşı möhkəmləndirməyin yollarından biridir.

**2.** Təkrar - bir şeyi qısa müddətə yadda saxlamağın ən optimal yolu təkrardır.

**3.** Düşüncədə təsvir - nəyisə yadda saxlamağın növbəti yolu onu vizual olaraq canlandırmaqdır.

**4.** Əhvalat uydurmaq - uzun bir siyahını yaddaşınıza həkk etmək üçün elə bir əhvalat uydurmaq lazımdır ki, yadda saxlamaq istədiyiniz hər bir element onun daxilində yer alsın.

**5.** İdeyalar qurmaq - yaxşı təşkil olunmuş qeydlərin aparılması vacibdir.

**6.** Motsartı dinləmək - klassik musiqiyə, xüsusən də Motsarta qulaq asmaq yaddaşı möhkəmləndirir.

**7.** Əqli çalışmalar - əgər vaxtından öncə yaddaşınızı itirmək istəmirsinizsə, o zaman beyninizi çalışdırın.

**8.** İdman - idman da öz növbəsində yaddaş üçün çox vacibdir. Çünki o, ürəyin fəaliyyətini artırır və beyinə daha çox oksigenin daxil olmasını təmin edir.

**9.** Düzgün qidalanmaq - balıq məhsulları və zeytun yağı yaddaşı inkişaf etdirir.

**10.** Qəhvə - bir fincan qəhvə fikirləri cəmləşdirməyə kömək edir. Saqqız çeynəmək də eyni təsirə malikdir.





## Uşaq anasını ölümdən xilas etdi, özü isə həlak oldu

**Bir neçə gün əvvəl Məkkədəki "Məscid əl Həram"da qaldırıcı kranın aşması nəticəsində yaranan təhlükə zamanı olduqca maraqlı və həm də düşündürücü, təsirli anlar yaşanıb. Hadisə zamanı kiçik yaşlı uşaq təhlükəni hiss edir və dərhal anasını kənara itələyir. Nəticədə uşaq dağıntılar altında qalaraq dünyasını dəyişir, ana isə salamat qalır. Bu zaman ayağa qalxıb geri, uşağına tərəf qaçan ana isə hər şeyin gec olduğunun şahidi olur, çünki artıq balası dünyasını dəyişmişdi. Bu kadrlar ana-övlad məhəbbətinin əvəzsiz olduğunu bir daha ortaya qoyur.**

Amma təəssüflər ki, həyatda hələ də belə bir ülvi hisslərdən məhrum insanlar da az deyil. Bu qəbildən olan valideynlər övladını ya küçələrə atır, ya da ən yaxşı halda uşaq evlərinə verir. Digər tərəfdən isə, bəzi övladlar hələ də valideynlərini küçələrə və ya qocalar evinə atmaqdan belə çəkinmirlər. Odur ki, videomaterialdakı görüntülər qəlbində valideyn və ya övlad sevgisi olmayanlar üçün əsl nümunədir.

Xatırladaq ki, sözügedən hadisə nəticəsində yüzlərlə insan həlak olub və ya yaralanıb.




**QOÇ** - Ulduzlar nahara qədər istirahət etməyinizi məsləhət görür. Əgər ciddi işlərə girişsəniz, uğurlu nəticə hasil olmayacaq. Günün ikinci yarısında isə sürpriz gözlənilir. Uzaq yola çıxmayın.

**BUĞA** - İlk növbədə yoluxucu xəstəliklərdən qorunun. Çünki ulduzlar axşam saatlarında orqanizminizin buna həssas olacağını bildirir. Nahar ərəfəsində sevindirici xəbər eşidəcəksiniz.

**ƏKİZLƏR** - Bütün danışıq və sövdələşmələri təxirə salıb oturaq işlərlə məşğul olun. Əks təqdirdə təxribat və ya böhtanla üzləşəcəksiniz. Yaxşısı budur, enerjinizi ailə və sevgiyə yönəldəsiniz.

**XƏRÇƏNG** - Bu təqvimdə ulduzlar daha çox sizin bürcə pul vəd edir. Bu səbəbdən də boş durmağınıza lüzum yoxdur. Büdcənizi artırmaq üçün ağlınıza gələn bütün ünvanlara və adamlara baş çəkin.

**ŞİR** - Təxminən saat 12-yə qədər bürcünüz üçün bəzi xoşagəlməzliklər mümkündür. Özünüzü gərgin və anlaşılmaz situasiyalara cəlb etməyin. Nahardan sonrasa maraqlı görüş və pul gözlənilir.

**QIZ** - Astroloji göstəricilər yalnız səfərə çıxmaqla yüksək əhval-ruhiyyəyə yiyələnəcəyinizi proqnozlaşdırır. Bu fürsəti fövtə verməyin. Ulduzlar varlanacağınızdan da xəbər verir.

**TƏRƏZİ** - Qonaqlıq üçün ideal gündür. Ya hansısa ünvana getməli, ya da ürəyinizə yaxın adamları qonaq çağırmalısınız. Bugünkü söhbətlərin gələcəyiniz üçün əhəmiyyəti böyük olacaq.

**ƏQRƏB** - Çağrılmamış ünvanlara qonaq getməyin. Əks təqdirdə məyusluqla qarşılaşacaqsınız. Bu gün təxribata cəlb olunmağınız üçün bir çoxları canfəşanlıq edəcəklər. Təmkinli olun.

**OXATAN** - Səhhətinizlə bağlı diqqətli olmağınız vacibdir. İqlimin dəyişkənliyi və ətrafınızda olan insanları qəbul etməməyiniz sinir sisteminizdə mənfi fəsadlar yarada bilər. İstirahətə fikir verin.

**OĞLAQ** - İmkan daxilində bütün riskli işləri təxirə salın. Əsas vaxtınızı istirahətə həsr etməklə növbəti günlərin planlarını qurun. Aldığınız təklifləri beyin süzgəcindən keçirin.

**SUTÖKƏN** - İndiki məqamda xilas yolunuz yalnız dost və müttəfiqlərdən asılıdır. Çünki əsaslı dönüş etmək üçün fiziki və psixoloji cəhətdən o qədər də hazır deyilsiniz. Sağlamlığınıza fikir verin.

**BALIQLAR** - Qərarlarınızda qəti olsanız, heç bir narahatçılıqla üzləşməyəcəksiniz. Bu gün darıxdığınız adamların bir çoxu ilə görüşəcəksiniz. Axşamsa sevindirici hadisələrin şahidi olacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Təyyarə oğurlayarkən tutuldu

Amerikanın Texas ştatında Vako hava limanındakı qadağan edilmiş bölgəyə maşını ilə girən şəxs hər kəsi təəccübləndirib. Əngəlləri aşaraq hava limanına girən şəxs təyyarə oğurlamağa çalışarkən ələ keçirilib. Adı açıqlanmayan kişi polisin xəbərdarlıqlarına baxmayaraq təyyarənin yanından ayrılmaq istəməyib. Polislər çətinliklə də olsa onu ələ keçirə bilib. Özəl bir şirkətə məxsus olan təyyarəni oğurlamağa çalışan şəxsin əqli problemləri olduğu bildirilir. Polislər həmin şəxsin təyyarə oğurlamağa təşəbbüs etdiyi, polisə qarşı çıxdığı və qadağan edilmiş əraziyə icazəsiz girdiyi üçün cəza alacağını deyiblər.



Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300